RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 85 (8401) ŞƏNBƏ, 2 may 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Korrupsiyaya və korrupsionerlərə qarşı daim amansız mübarizə aparılacaqdır

## Prokurorluq orqanları bu mübarizənin ön sıralarında olmalıdır

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 1-də Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edib.**

AZƏRTAC xəbər verir ki, **Prezident İlham ƏLİYEV** dedi:

- Siz bu gün Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilirsiniz. Ümid edirəm ki, bu yüksək etimadı doğruldacaqsınız. Siz prokurorluq orqanlarında 30 ildən çoxdur ki, işləyirsiniz. Hələ sovet dövründən bu işə başlamısınız və son 6 il ərzində Azərbaycan Respublikası Baş prokurorunun müavini vəzifəsində çalışırsınız. Ümid edirəm, əldə olunmuş təcrübə sizə imkan verəcək ki, prokurorluq orqanlarının işinin təkmilləşdirilməsi və islahatların dərinləşməsi istiqamətində nəticələr əldə edilsin.

Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.

Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır. Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır. Bir daha bildirməliyəm ki, Azərbaycanda heç kim öz siyasi baxışlarına, siyasi mənsubiyyətinə, siyasi fəaliyyətinə görə təqib edilməməlidir.

Eyni zamanda iqtisadi islahatlar aparılmadan ölkəmizin dayanıqlı inkişafı mümkün deyil. Mən hələ bir neçə il bundan əvvəl demişdim ki, biz postneft dövrünə hazırlaşmalıyıq və əslində postneft dövrü artıq göz qabağındadır. Çünki neft bazarlarında müşahidə olunan böhran demək olar ki, neftlə zəngin olan bütün ölkələrin gəlirlərinə çox mənfi təsir göstərmişdir. Ona görə bizim əsas məqsədimiz qeyri-neft sektorunun inkişafıdır və bu istiqamətdə əldə edilmiş nəticələr məhz islahatlara söykənir, aparılan islahatların nəticəsidir.

*Ardı 2-ci səh.*

## "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 16-cı bəndini rəhbər tutaraq **qərara alır:**

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 8, maddə 477; 2001, № 11, maddə 687, № 12, maddələr 731, 736; 2002, № 5, maddə 241, № 6, maddə 328; 2006, № 2, maddə 75; 2007, № 6, maddə 561, № 12, maddə 1197; 2008, № 7, maddə 602; 2010, № 4, maddə 275; 2013, № 5, maddə 477; 2016, № 11, maddə 1765; 2018, № 5, maddə 872, № 12 (I kitab), maddə 2505; 2019, № 8, maddə 1382, № 12, maddə 1908) aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci maddənin "valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların arasından olan şəxslər" bəndində "və orta ixtisas" sözləri ", orta ixtisas və peşə" sözləri ilə əvəz edilsin.

2. 5-ci maddə üzrə:

2.1. birinci, ikinci və dördüncü hissələrdə, beşinci hissənin birinci cümləsində "və orta ixtisas" sözləri ", orta ixtisas və peşə" sözləri ilə əvəz edilsin;

2.2. yeddinci hissəyə "ümumi təhsil," sözlərindən sonra "peşə və" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 aprel 2020-ci il*

## "Sizin xeyirxah əməlləriniz Azərbaycanı daim zirvələrdə saxlayacaq"

**Azərbaycanda koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması, rifahının yaxşılaşdırılması ilə bağlı atdığı qətiyyətli addımlara görə Prezident İlham Əliyevə vətəndaşlardan çoxsaylı minnətdarlıq məktubları gəlməkdə davam edir.**

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən **Rəmziyə Abbasova** yazır: "Möhtərəm cənab Prezident, mən Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin tələbəsi, Dövlət Gömrük Komitəsinin "Könüllü gömrükçü" dəstəsinin üzvüyəm. Cənab Prezident, 200-dən artıq ölkədə milyonlarla insanı yoluxduran, çoxsaylı ölüm halları ilə nəticələnən koronavirus pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə atdığınız addımlar təqdirəlayiqdir. Ölkəmizdə hələ virusa yoluxma halı qeydə alınmamışdan əvvəl görülən qabaqlayıcı tədbirlər və verilən qərarlar, o cümlədən sərhədlərin bağlanması, xaricdəki vətəndaşlarımızın Vətənə dönmələrinə şəraitin yaradılması, səhiyyə sahəsində infrastrukturun möhkəmləndirilməsi virusun Azərbaycanda yayılmasının qarşısını almağa imkan verdi.

*Ardı 3-cü səh.*

## Parlament Prezident İlham Əliyevin təqdimatına razılıq verdi

**Mayın 1-də Milli Məclisin növbəti plenar iclası keçirildi. İclasda ilk olaraq Azərbaycan Respublikası Baş prokurorunun vəzifəyə təyin edilməsinə razılıq verilməsi haqqında məsələyə baxıldı.**

### Yeni Baş prokurorun namizədliyi müsbət qiymətləndirildi

Məsələ ilə bağlı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev məlumat verdi. Bildirildi ki, Prezident İlham Əliyevin təqdimatına əsasən, Baş prokuror vəzifəsinə Baş prokurorun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyevin namizədliyi irəli sürülüb.



Ədalət Vəliyev Kamran Əliyevin bioqrafiyası, prokurorluq orqanlarında keçdiyi xidmət yolu barədə ətraflı məlumat verdi. Qeyd olundu ki, Kamran Əliyev Kadrlar idarəsinin prokuroru, Elm-Tədris Mərkəzinin rəisi, Baş Prokurorluğun İstintaq və ağır cinayətlərə dair işlər üzrə istintaq idarələrində müstəntiq və böyük müstəntiq, Baş prokurorun köməkçisi və böyük köməkçisi, Baş Prokurorluğun Dövlət İttihamının müdafiəsi idarəsinin rəisi vəzifələrində işləyib.

*Ardı 4-cü səh.*

## Arxayınlaşmaq tezdir: təhlükə hələ qalır

### İnsanlar profilaktik tədbirlərə uyğun davranmasa, prosesin ikinci dalğası başlaya bilər

Ötən ilin dekabrında Çinin Uhan şəhərində aşkarlanan yeni növ koronavirus (COVID-19) artıq planetin 210 ölkə və bölgəsinə yayılıb. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada bu virusa yoluxanların sayı 3 milyondan çoxdur.

Xəstəlikdən sağalanların sayı 1 milyonu ötsə də, pandemiya qurbanlarının sayı 300 minə yaxınlaşır. Hazırda dünyanın ən böyük problemi olan COVID-19 pandemiyasının qarşısının alınması məqsədilə bütün dövlətlər çoxsaylı tədbirlər görür, virusun təsirinin azaldılması üçün addımlar atırlar. Bəzi ölkələr bu addımları atmaqda geciksələr də, vaxtında zəruri və səmərəli tədbirlər həyata keçirən dövlətlər də oldu.

### Azərbaycanda koronavirusa yoluxma və ölüm halları azdır

Azərbaycan dünyada az-az dövlətlərdəndir ki, xalqının sağlamlığını düşünərək virusun yayılmasının qarşısını almaq üçün vaxtında qabaqlayıcı, çevik tədbirlər həyata keçirdi. Prezident İlham Əliyevin sərəncamı ilə bu ilin əvvəlində Nazirlər Kabineti yanında Operativ Qərargah yaradıldı. Martın 3-dən etibarən ölkə üzrə bütün təhsil müəssisələrində tədris prosesi mərhələli şəkildə dayandırıldı. Ölkə ərazisində keçirilməli olan bütün kütləvi tədbirlər təxirə salındı və ya ləğv edildi. Martın 14-dən etibarən bir sıra sosial təcrid tədbirlərini əhatə edən xüsusi rejim, martın 24-dən isə xüsusi karantin rejimi tətbiq olundu. Ticarət və əyləncə mərkəzlərinin fəaliyyəti dayandırıldı, park və ictimai istirahət yerlərinə insanların girişi qadağan edildi.

*Ardı 6-cı səh.*



## Ağdərə-Sumqayıt magistral qaz xətti ölkə sənayesinin inkişafına mühüm töhfə verəcək

### Qaz elektrik enerjisi sisteminin də əsas mənbəyi olaraq qalır

**COVID-19-un yaratdığı çətinliklərə baxmayaraq, Azərbaycanda sosial infrastruktur layihələrinin həyata keçirilməsi davamlı xarakter daşıyır.**

Son aylarda istifadəyə verilən müxtəlif təyinatlı infrastruktur buna əyani misaldır. Onlardan biri - keçən ay istifadəyə verilən Ağdərə-Sumqayıt magistral qaz xətti Sumqayıt əhalisinin mavi yanacaqla təminatını yaxşılaşdırmaqla bərabər, həm də ölkəmizin iqtisadi inkişafına töhfə verən vacib bir infrastrukturdur.

Bu gün Sumqayıt təkcə Azərbaycanın deyil, bütün Cənubi Qafqazın ikinci böyük sənaye mərkəzidir. Xüsusilə son illərdə Sumqayıt daha da abadlaşmış, ekoloji cəhətdən təmiz şəhərə çevrilmişdir. Şəhərin əhalisi də getdikcə artır. Odur ki, infrastrukturun yenilənməsi vacib məsələ kimi gündəmə gəlir.

Bu baxımdan Abşeron rayonunun ərazisində Xızı rayonunun Ağdərə kəndindən Sumqayıta magistral qaz kəmərinin çəkilməsi mühüm əhəmiyyət daşıyır.

İndiyədək Sumqayıt şəhərinin əhalisi Qaradağdan 12 düymlük 12 atmosfer təzyiqli xətlə qaz alırdı. Şəhər sənayesi üçün Qaradağ-Digah-Şimal DRES xəttindən 30 atmosferlik bir xətt çəkilmişdi.

*Ardı 8-ci səh.*

- *Özünü, doğmalarını və dostlarını qorumaq:*
- *Koronavirusa qalib gəlmək üçün*

**EVDƏ QAL!**

*Biz birlikdə gücllüyük!*



# Korrupsiyaya və korrupsionerlərə qarşı daim amansız mübarizə aparılacaqdır

## Prokurorluq orqanları bu mübarizənin ön sıralarında olmalıdır

Əvvəli 1-ci səh.

Məhz şəffaflıq, dürüstlük və islahatlar nəticəsində keçən il büdcə daxilolmalarının həcmi proqnozdan əlavə bir milyard manat artmışdır və bu vəsait böyük dərəcədə imkan vermişdir ki, bir çox sosial layihələr icra edilsin. Bu ilin birinci rübünün yekunları göstərir ki, pandemiyaya baxmayaraq iqtisadi artım var. Düzdür, çox kiçik rəqəmlərlə ölçülür - 1,1 faiz. Ancaq bu yaxınlarda Avropa Yenidənqurma və İnkişaf Bankının rəhbərliyi ilə keçirdiyim görüş əsnasında məlum oldu ki, bir çox ölkələrdə indi iqtisadi tənəzzül müşahidə olunur. Bizdə də bu, istisna edilmir, çünki pandemiya ölkə iqtisadiyyatına çox böyük mənfi təsir göstərmişdir. Ancaq hər halda birinci rübün yekunları göstərir ki, iqtisadiyyat 1,1 faiz, qeyri-neft iqtisadiyyatımız isə 3 faizdən çox artmışdır. Bütün bunların əsas səbəbi aparılan islahatlardır və bu, bizə imkan verir ki, sosial sahədə çox genişmiqyaslı proqramlar icra edilsin, o cümlədən keçən il 4,2 milyon insanın sosial vəziyyəti yaxşılaşmış, minimum əməkhaqları, minimum pensiyalar, müavinətlər əhəmiyyətli dərəcədə artmışdır. Koronavirusa görə bu il bu istiqamətdə əlavə addımların atılması təmin edilmişdir. Bu addımlar bir daha göstərdi ki, bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu əsas məqsəd, həmişə, bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir.

Kadr islahatları aparılır və bu islahatlar imkan verib ki, yeni peşəkar, bilikli, müasir kadrlar önə çəkilsin. Onlara önəmli vəzifələr həvalə edildi və hesab edirəm ki, bu da zəmanənin tələbidir. Çünki bu gün müasir dünyada siyasi, iqtisadi sahələrdə, beynəlxalq müstəvidə müasir yanaşmalar olmalıdır. Yüksək keyfiyyətli təhsil almış gənc kadrların həm hökumətdə, həm Prezident Administrasiyasında, parlamentdə və digər qurumlarda təmsil olunması bizim şüurlu seçimimizdir. Təbii ki, təcrübəli kadrlar da öz biliklərini gənc nəsillə bölüşməlidirlər. Belə olan halda təbii ki, hüquq mühafizə orqanlarında da daha genişmiqyaslı islahatların aparılması başlıca şərtdir. Burada sizin üzərinizə böyük vəzifə düşür və ümid edirəm ki, siz bu vəzifənin öhdəsindən gələcəksiniz. İlk növbədə, qanunun aliliyi tam təmin edilməlidir və ədalətli cəmiyyətin qurulması üçün qanunun aliliyi başlıca şərtdir. Əfsuslar olsun ki, biz istədiyimizə hələ də tam nail olmamışıq, o cümlədən hüquq mühafizə orqanları tərəfindən qəbul edilmiş qərarlar bəzi hallarda qanunlara ziddir, sosial ədaləti pozur, insanları haqlı olaraq narazı salır və beləliklə ümumi işimizə böyük ziyan vurur. Bunun səbəblərindən biri qeyri-peşəkarlıq ola bilər, ancaq bəzi hallarda bunun arxasında hansısa maraqlar, şəxsi təmənna dayanır. Bu gün bütün hüquq mühafizə orqanlarının əməkdaşları və rəhbərləri məni eşidirlər. Mənim sözlərim onlar üçün əsas göstəriş olmalıdır ki, Azərbaycanda hüquq mühafizə sistemində islahatlar dərinləşsin və qanunun aliliyi təmin edilsin.

Kadrların peşəkarlığı da daim diqqət mərkəzində olmalıdır və siz bu məsələ ilə ciddi məşğul olmalısınız. Həm bu gün fəaliyyətdə olan kadrların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməlidir, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilər yüksək peşəkarlığa malik olmalıdırlar, eyni zamanda, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsipləri də həmişə üstün olmalıdır. Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi, ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır.

Digər vacib vəzifələrdən biri korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizədir. Hesab edirəm ki, prokurorluq orqanları bu istiqamətdə daha fəal iş aparmalıdırlar. Bu xoşagəlməz hallara qarşı Azərbaycanda çox ciddi mübarizə aparılır. Mən bu məsələ ilə bağlı dəfələrlə öz fikirlərimi bildirmişdim. Bütün dövlət məmurlarını xəbərdar etmişdim və hətta demişdim ki, əgər hansısa dövlət məmuru öz işində düzəlişlər edə bilmirsə, yaxud da ki, istəmirsə, qoy özü könüllü şəkildə dövlət işindən istefa versin.

Amma əfsuslar ki, mənim sözlərim bəziləri üçün dərs olmadı və bunun nəticəsində indi Dövlət Təhlükəsizliyi Xidməti bir neçə əməliyyat keçirərək rüşvətxorları, yüksək vəzifə sahiblərini ifşa etdi və onlar artıq cinayət məsuliyyətinə cəlb edilmişlər. Ağstafa, Biləsuvar, Yevlax, Neftçala rayonlarının icra başçıları həbs edilmişdir, ictimaiyyətə bu məsələ ilə bağlı ətraflı məlumat verilmişdir və bundan sonra da ətraflı məlumat veriləcəkdir.

Eyni zamanda bu yaxınlarda Binəqədi qəsəbə bələdiyyəsinin sədri saxta icazə sənədi satmaqda ittiham olunub və əşyayi-dəlillə saxlanılıb. İsmayıllı rayonunun şəhər üzrə icra nümayəndəsi yardımın mənimsənilməsi ilə məşğul olmuş, kasıb adamlara göndərilən yardımı özünə götürmüşdür. Həbs edilmiş icra başçılarının istintaqı gedir. Ancaq bu gün nümayiş etdirilən videokadrlar onu göstərir ki, rüşvətxorluq bu adamlar üçün əsas prinsip olmuşdur. Yəni bütün aidiyyəti qurumlar bir qayda olaraq hər ay icra başçılarına və icra hakimiyyətinin digər nümayəndələrinə rüşvət verməli olmuşlar. Əfsuslar olsun ki, belə xoşagəlməz hallar digər rayonlarda da vardır. Bu haqda məlumat var və bir daha demək istəyirəm ki, heç kim məsuliyyətdən boyun qaçıra bilməyəcək. Heç kim qanundan üstün deyil və əgər kim fikirləşir ki, onun yaxınları, tanışları, qohumları, yüksək vəzifəli dostları ona kömək edəcəklər, səhv edir. Qanun qarşısında hamı bərabərdir, Azərbaycan cəmiyyətində korrupsiya və rüşvətxorluq olmamalıdır. Hər halda biz çalışmalıyıq ki, korrupsiya və rüşvətxorluq üçün meydanı həm inzibati yollarla, həm də institusional üsullarla daraldaq. Eyni zamanda cəza tədbirləri də tətbiq olunur və tətbiq ediləcəkdir.

Ona görə bu dörd rayonda hansı ki, icra başçıları həbs olunub, orada işlər geniş təhlil edilməlidir. Artıq dünən mənə məlumat verildi ki, Biləsuvar rayonunun həbs edilmiş icra başçısı bir neçə insanın torpaq sahəsini əllərindən alıb. Bu vətəndaşlar mənə açıq şəkildə müraciət etmişlər və dərhal göstəriş verildi ki, bu məsələ araşdırılsın. Əgər bu siqnal özünü təsdiqləsə, bu torpaqlar həmin vətəndaşlara qaytarılmalıdır. Ona görə prokurorluq orqanları bu işlərdə fəal olmalıdırlar. Bu gün bu ağır dövrdə verilən ərzağı oğurlamaq, fəhlələrə nəzərdə tutulmuş maaşı öz cibinə qoyaraq mənimsəmək həm cinayətdir, həm böyük vicdansızlıqdır. Bu vəsaiti ayırırıq ki, bu gün özünə iş tapa bilməyən insan heç olmasa minimum əməkhaqqı səviyyəsində işlə təmin edilsin. Bunlar ictimai işlərdir və biz bu yolla insanları işlə təmin edirik. Əgər birinci mərhələdə təqribən 30 min iş yeri yaradılmışdırsa, hazırda mən göstəriş vermişəm ki, onların sayı 90 minə çatdırılsın. Ancaq birinci mərhələdə bu vəsaitin paylanılması icra başçıları tərəfindən həyata keçirilirdi. Burada mövcud olan nəzarətsizlik və korrupsiya halları bir çox insanları dövlət tərəfindən verilən bu yardımdan faktiki olaraq məhrum etmişdir. Bu, vicdansızlıqdır, buna başqa ad vermək olmaz. Artıq bu gün biz nəzarəti gücləndirmişik. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də tapşırıq verildi ki, onlar bu işlərə də nəzarəti gücləndirsinlər. Ancaq buna baxmayaraq, həbs edilmiş icra başçılarının, icra nümayəndəsinin iş otaqlarından, onların ciblərindən yenə də həmin o kasıb insanlara çatacaq kartlar çıxır. Ona görə bu və digər hallara qarşı mübarizə çox ciddi olmalıdır.

Pandemiya ilə əlaqədar bu gün Azərbaycan dövləti bütün resursları səfərbər edib, ilk növbədə, vətəndaşları, onlara həyatını, sağlamlığını qorumaq üçün əlindən gələni edir. Operativ Qərargah, bütün aidiyyəti qurumlar gecə-gündüz işləyirlər. Hər gün bizim birinci və günün axırında sonuncu əsas işimiz bu məsələ ilə məşğul olmaqdır. Nə qədər adam xəstələndi, nə qədər adam sağaldı, neçə nəfər xəstəxanalara yerləşdirildi, onların vəziyyəti necədir, ağır vəziyyətdə olan vətəndaşların durumu, onların sağalma şansları necədir - biz gecə-gündüz bununla məşğul oluruq. Dövlət, ictimai təşkilatlar, ilk növbədə, Heydər Əliyev Fondu, ayrı-ayrı sahibkarlar, ayrı-ayrı imkanlı adamlar öz təşəbbüsləri ilə gedib kasıb insanlara əl tuturlar. Bu yardımı mənimsəməyə nə ad vermək olar?! Bu yaxınlarda Heydər Əliyev Fondu tərəfindən göndərilmiş ərzaq paylarını da aparıb öz qohumlarının evlərində saxlayırlar ki, sonra onları satsınlar. Biz buna gözmü yumacağıq? Belə adamlar ən ciddi cəzaya layiqdirlər.

İndi dünya liderlərinin bir çoxu qeyd edir ki, pandemiya müharibədir. Bəli, mən bu tezislə razıyam. Əgər indiki şəraitdə bunlar özlərini belə aparırlarsa, bundan daha ağır vəziyyət yaranarsa, onda bunlar nə edəcəklər? Bunun bir adı var - vicdansızlıq və xəyanət. Ona görə bundan sonra bu ünsürlərə qarşı mübarizə daha ciddi aparılmalıdır.

Biz dövlət sektorunda işləyən 900 min insanın əməkhaqqını tam ödəyirik. 600 min özəl sektor nümayəndəsinin, o cümlədən mikrosahibkarın, - hansı ki, onların çalışdıqları sahələr pandemiyaya görə daha çox zərər çəkib, - əməkhaqqının əhəmiyyətli hissəsini ödəyirik. Aztəminatlı təbəqəyə aid olan 600 min insanın, o cümlədən işsizlərin və qeyri-formal məşğul olanların vəsaitini ödəyirik. Biz hər bir vətəndaşa kömək etmək istəyirik, hər bir vətəndaşa! İcra başçılarının, digər mərkəzi və yerli icra orqanlarının rəhbərlərinin vəzifəsi budur. Hər bir icra başçısı vəzifəyə təyin olunanda ona mənim əsas sözlərim odur ki, get, vətəndaşlara xidmət et, get, vətəndaşlarla bir yerdə ol, təmiz işlə, rüşvət alma, vətəndaşları incitmə, kömək göstər, eyni zamanda, sahibkarlara kömək göstər, onların malını əlindən alma, onların fəaliyyətindən özünə pay istəmə. Hər birinə bu sözləri deyirəm. Bu məsələ ilə bağlı bizim mövqeyimiz birmənalıdır. Korrupsiyaya və korrupsionerlərə qarşı amansız mübarizə aparılacaq. Onu da bildirməliyəm ki, bu hallar təkcə yerli icra orqanlarında müşahidə edilmir, mərkəzi icra orqanlarında da belə hallar, belə siqnallar var və bu siqnallar araşdırılır. Verilən məlumata görə, bəzi mərkəzi icra orqanlarında, bəzi nazirliklərdə, - hələ bu siqnallar araşdırılır, - vəzifəyə təyin olunmaq üçün insanlardan bəzi hallarda rüşvət tələb edilir. Bu, cinayətdir, bu, bizim cəmiyyətimizin əsaslarını sarsıdan addımlardır, çirkin addımlardır. Pul verib vəzifəyə gələn adam ilk növbədə neyləyəcək? Çalışacaq ki, o pulun əvəzini çıxsın. Bunu haradan çıxaracaq? Ya haradansa dövlət malını oğurlayacaq, ya da ki, əgər imkanı olacaqsa, insanlardan pul tələb edəcək.

Biz bunu dəfələrlə görmüşük. Sadaladığım bu rayonlarda səhiyyə, təhsil, mədəniyyət sahəsində kütləvi şəkildə vətəndaşlardan, valideynlərdən, hər məktəb direktorundan pul yığılır. Rayon mərkəzi xəstəxanasının baş həkimindən icra hakimiyyətinə pul verilir. O da öz növbəsində bütün şöbələrdən hər ay haqq yığır. Bütün bələdiyyələr icra hakimiyyətinə aylıq pul verir. Biz bu hallara qarşı amansız mübarizə aparacağıq. Haqq da, xalq da bizim tərəfimizdədir. Bütün bu iflşaedici görüntülər hər bir Azərbaycan vətəndaşında haqlı olaraq ikrah hissi doğurur. Eyni zamanda mənə ünvanlanan yüzlərlə, minlərlə məktubda bizim bu addımlarımıza böyük dəstək göstərilir. Ona görə prokurorluq orqanları bu işdə ön sıralarda olmalıdır və qanunun aliliyini təmin etməlidir.

Ümid edirəm, sizin iş təcrübəniz və peşəkarlığınız imkan verəcək ki, mənim bu göstərişlərimin icrası təmin edilsin. Prokurorluq orqanlarının işçiləri bundan sonra da Vətənə ləyaqətlə xidmət etsinlər və bütün hüquq mühafizə orqanları elə çalışsınlar ki, həm vətəndaşlar, ictimaiyyət onların işindən razı olsun, eyni zamanda, dövlətin maraqları və qanunun aliliyi təmin edilsin.

Mən bu gün Sizi təyin edirəm və ümid edirəm ki, Siz bu yüksək etimadı doğruldacaqsınız.

❖ ❖ ❖

Baş prokuror **Kamran ƏLİYEV** dedi:

- Çox sağ olun, möhtərəm cənab Prezident. İcazə verin, əvvəlcə Sizə mənə böyük etimad göstərdiyinizə, məni bu mühüm dövlət postuna layiq gördüyünüzə, bu vəzifəyə təyin etdiyinizə görə dərin təşəkkürümü bildirim.

Prokurorluq orqanları doğrudan da dövlət quruculuğunda, dövlət idarəçiliyində çox mühüm bir orqandır. Prokurorluq orqanlarının dövlət idarəçiliyində yerini Ulu Öndər Heydər Əliyev müəyyən etmişdir. Ulu Öndər Heydər Əliyev qeyd etmişdir ki, prokurorluq dövlətin əsas sütunlarından biridir. Bu, doğrudan da belədir. Prokurorluq orqanları Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısı ilə daim əhatə olunmuşdur. Onun rəhbərliyi ilə müstəqil Azərbaycanın prokurorluğu mühüm inkişaf yolu keçmişdir. Məhz onun müvafiq sərəncamı ilə prokurorluq orqanlarının - müstəqil Azərbaycan Prokurorluğunun peşə bayramını - 1 oktyabr gününü biz hər il qeyd edirik.

Möhtərəm cənab Prezident, Siz 2003-cü ildə Azərbaycan xalqı tərəfindən Prezident seçildikdən sonra prokurorluq orqanları yenə də daim diqqət və qayğınızla əhatə edilmişdir. Prokurorluq orqanlarında bu gün doğrudan da kifayət qədər çox peşəkar kadrlar, Vətənə, dövlətə xidmət edən, dövlətə sədaqətli kadrlar var. Bu, Sizin rəhbərliyinizlə prokurorluq orqanlarında həyata keçirilmiş mühüm islahatların nəticəsidir.

Sizin rəhbərliyinizlə digər sahələrdə həyata keçirilən islahatların prokurorluq orqanlarında da aparılması çox zəruridir. Siz ötən il məhkəmə-hüquq islahatları barədə müvafiq fərman imzalamısınız və bu istiqamətdə işlər davam edir. Bu baxımdan hesab edirəm ki, məhkəmə-hüquq sisteminin tərkib hissəsi olan prokurorluqda islahatların aparılması xüsusi önəm kəsb edir.

Siz tamamilə düzgün qeyd etdiniz ki, hazırda - postneft dövründə həyata keçirilən islahatlar birinci növbədə əhalinin rifahının, hər bir Azərbaycan vətəndaşının gündəlik həyatının yaxşılaşmasına xidmət edir.

Prokurorluq orqanlarının fəaliyyət dairəsi doğrudan da genişdir. Prokurorluğun əsas fəaliyyət istiqamətlərindən biri də təbii ki, ağır cinayətlərə, dövlətə, dövlətçiliyə qarşı yönələn bütün daxili və xarici təhdidlərə qarşı amansız mübarizə aparmaqdır. Bu sahədə təbii ki, prokurorluq orqanları digər dövlət qurumları ilə - həm Dövlət Təhlükəsizliyi Xidməti, həm Daxili İşlər Nazirliyi və digər müvafiq dövlət qurumları ilə birbaşa sıx əlaqədə işləməlidirlər.

Möhtərəm cənab Prezident, Siz korrupsiyaya qarşı mübarizə ilə bağlı xüsusi olaraq qeyd etdiniz. Azərbaycan Prezidenti seçildikdən sonra korrupsiyaya qarşı mübarizə Sizin həyata keçirdiyiniz islahatların, siyasətin ən mühüm tərkib hissəsi olmuşdur. Məhz həmin dövrdən Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərə, həm Avropa Şurasının, həm Birləşmiş Millətlər Təşkilatının bu sahədə bütün mövcud konvensiyalarına qoşulmuş və bu sahədə institusional tədbirlər həyata keçirilmiş, müvafiq qurumlar yaradılmışdır. Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi də bu sahədə ixtisaslaşmış cinayət təqibi orqanı kimi yaradılmışdır. Sizin 2013-cü ildə prokurorluğun peşə bayramı günü ərəfəsində Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin yeni tikilmiş binasının açılışında iştirak etməyiniz tam əminliklə deyirəm ki, prokurorluq orqanlarında xüsusi olaraq ruh yüksəkliyi yaratmışdır. Sizin həmin vaxt gənc prokurorluq əməkdaşları qarşısında çıxışınız hər bir prokurorluq əməkdaşının bu gün də xatirindədir və onlar bunu daim böyük fərəh, qürur hissi ilə qeyd edirlər.

Biz prokurorluq orqanlarında islahatları davam etdirməliyik. Kadr islahatları doğrudan da çox vacib məsələdir və biz bu sahədə fəaliyyətimizi davam etdirəcəyik. Əgər zərurət yaranarsa, təbii ki, prokurorluğun, həmçinin struktur qurumlarının fəaliyyəti təhlil edilməlidir. Hesab edirəm ki, biz bu sahədə də mütərəqqi addımlar atmalıyıq.

Sizin tapşırığınız və göstərişinizlə prokurorluq orqanları beynəlxalq qurumlarla daim əməkdaşlıq etmişdir. Həm beynəlxalq qurumlar və eyni zamanda digər ölkələrin prokurorluq və antikorrupsiya orqanları ilə mütəmadi əlaqələr saxlanılmışdır. Təbii ki, bu iş Sizin siyasi iradənizə uyğun həyata keçirilmişdir. Siz prokurorluq orqanlarının əməkdaşları qarşısında çıxışınız zamanı qeyd etdiyiniz kimi, biz fəaliyyətimizdə ən qabaqcıl təcrübəni yalnız öyrənməklə kifayətlənməməli, eyni zamanda, gündəlik fəaliyyətimizdə tətbiq etməliyik.

Cənab Prezident, Siz koronavirus pandemiyası ilə bağlı qeyd etdiniz ki, bu, bir müharibədir. Azərbaycan dövləti Sizin rəhbərliyinizlə, Mehriban xanımın gündəlik diqqət və qayğısı sayəsində digər qabaqcıl ölkələrlə müqayisədə demək olar ki, bu böyük problemi artıq arxada qoymaq üzrədir. Ümid edirik ki, bu istiqamətdə işlər belə də davam edəcəkdir.

Möhtərəm cənab Prezident, icazə verin, məni bu çox məsul dövlət vəzifəsinə layiq bildiyiniz üçün Sizə bir daha dərin təşəkkürümü bildirim. Sizi tam əmin etmək istəyirəm ki, prokurorluq orqanları bundan sonra da daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, öz xalqına xidmət edəcəkdir. Bir daha təşəkkür edirəm.

**Prezident İlham ƏLİYEV:**

- Sağ olun, sizə uğurlar arzulayıram.

**Kamran ƏLİYEV:**

- Çox sağ olun.

---

# "Elm haqqında" və "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Elm haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 8, maddə 1366; 2018, № 11, maddə 2198) 9.1-ci maddəsində "ali və ya orta ixtisas təhsilinə (subbakalavr ixtisas dərəcəsi)" sözləri "ali təhsilə, subbakalavr peşə-ixtisas dərəcəsi almış orta ixtisas və ya yüksək texniki peşə təhsilinə" sözləri ilə əvəz edilsin.

**Maddə 2.** "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685) aşağıdakı məzmunda 14.6-cı maddə əlavə edilsin:

"14.6. Yüksək texniki peşə təhsilini bitirərək subbakalavr peşə-ixtisas dərəcəsi almış şəxslər orta ixtisas təhsilini bitirmiş subbakalavrlara bərabər tutulur.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2020-ci il*

---

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddələr 2214, 2217, 2220, 2233, 2237, 2240, 2253, 2256, 2266; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1168, № 7 (I kitab), maddələr 1435, 1437, 1438, № 10, maddə 1963, № 11, maddələr 2188, 2191, 2214, 2217, 2231, № 12 (I kitab), maddələr 2473, 2475, 2499, 2507, 2512, 2522; 2019, № 1, maddələr 4, 6, 15, 18, 44, № 3, maddələr 374, 389, № 4, maddələr 579, 581, 587, 595, № 5, maddələr 791, 800, 803, 804, 813, № 6, maddələr 992, 998, 1007, № 7, maddə 1193, № 8, maddələr 1364, 1367, 1368, 1381 və 1383, № 11, maddələr 1682, 1686, 1696, № 12, maddələr 1883, 1900; Azərbaycan Respublikasının 2020-ci il 17 mart tarixli 27-VIQD nömrəli Qanunu) 54.2-ci maddəsinə "538-1.4 - 538-1.6" rəqəmlərindən sonra "540.5," rəqəmləri əlavə edilsin:

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 mart 2020-ci il*

---

# K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 9-cu bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikasının Baş prokuroru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

---

# K.B.Əliyevin Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 133-cü maddəsinin 4-cü hissəsini rəhbər tutaraq **qərara alıram:**

Kamran Bayram oğlu Əliyev Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 may 2020-ci il*

## Vətəndaşlar dövlət başçısına minnətdarlıq edirlər

# “Sizin xeyirxah əməlləriniz Azərbaycanı daim zirvələrdə saxlayacaq”



*Əvvəli 1-ci səh.*

Bu gün Azərbaycan virusla mübarizədə ən qabaqcıl ölkələrdəndir. Mən 2-ci qrup Qarabağ müharibəsi əlilinin qızı, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin sakini diqqət və qayğınızı təkcə bu günlərdə deyil, hər zaman hiss edən gənc vətəndaş olaraq Sizə minnətdarlığımı bildirir, müasir dünyagörüşünə sahib, Vətəninə, xalqına bağlı bir gənc və layiqli vətəndaş olmaq, bizə göstərdiyiniz etimadı doğrultmaq üçün əlimdən gələni edəcəyimə söz verirəm. Möhtərəm cənab Prezident, biz - könüllü gömrükçülər Sizin çağırışlarınıza səs verir, güclü dövlətçiliyimiz və yüksək rifahımız naminə atdığınız addımlara görə Sizə təşəkkürümüzü bildirir və Sizinlə fəxr edirik. Allah Sizi və xalqımızı qorusun! Biz birlikdə güclüyük!”

Azərbaycan Kənd Qadınları Assosiasiyasının “Qız yurdu” qrupunun üzvü **Natavan Fətullayeva:** “Cənab Prezident, bütün dünyanı bürüyən koronavirus bəlası bizim ölkəmizdən də yan keçmədi. Lakin Sizin uzaqgörən siyasətiniz nəticəsində ölkə daxilində təxirəsalınmaz və sistemli tədbirlər həyata keçirildi. Nəticədə bu infeksiyanın geniş kütləyə yayılmasının qarşısı alındı. Möhtərəm Prezident, xalqın mənafeyini daim hər şeydən üstün tutduğunuz aşkardır. Sosial izolyasiya şəraitində ölkə əhalisini ərzaq məhsulları ilə təmin edən kənd təsərrüfatının fəaliyyətinə məhdudiyyətin tətbiq olunmaması buna daha bir sübutdur. Kənd təsərrüfatının inkişafı üçün gördüyünüz tədbirlər bu gün özünü göstərməkdədir. Əkinin əkilməsi, biçilməsi, tədarükü və satışla bağlı heç bir problem yoxdur. Daim xalqın yanında olduğunuz üçün Sizə təşəkkürümüzü bildirirəm”.

Bakı şəhərinin Suraxanı rayonunun sakini **Əlăddin Xələfli:** “Hörmətli cənab Prezident, artıq neçə aydır koronavirus adlı xəstəlik dünyaya və insanlığa meydan oxuyur. Baxıb görürük ki, bu ağır sınaqdan çox az ölkə üzüağ çıxacaq. İnanırıq ki, onlardan biri də bizim Vətənimiz olacaq. Çünki Siz bu gözəgörünməz bəlanın qarşısının alınması üçün böyük işlər görürsünüz. Bunun nəticəsində gözəgörünməz bəlanın ölkəmizdə minimum həddə olması sevindirici haldır. Ümid edirik ki, gördüyünüz işlərin nəticəsində xalqımız COVID-19 virusundan tezliklə qurtulacaq. Həmişə olduğu kimi, bu çətin günlərdə də xalqın yanında olduğunuza, xalqa qayğı göstərdiyinizə görə şəxsən öz adımdan və ailəmin adından Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin dediyiniz kimi, “Biz birlikdə güclüyük!” Ulu Tanrı Sizi qorusun!”

Oğuz rayonunun sakini **Günay Haşımovanın** məktubunda deyilir: “Möhtərəm cənab Prezident, bu məktubu yazmaqda məqsədim ailəmiz adından Sizə qarşı hörmətimi və sonsuz inamımı bildirməkdir. Azərbaycan xalqı koronavirus pandemiyası dövrünü yaşayarkən Siz təkcə böyük məsuliyyət hissi olan, bu günü deyil, gələcəyi düşünən lider kimi yox, həm də bir qayğıkeş ata, ürəyi yanan qardaş kimi xalqa arxa-dayaq oldunuz. Azərbaycan azsaylı dövlətlərdəndir ki, Sizin sayənizdə koronavirus pandemiyasını vaxtında cilovlamağı bacardı və dünya ölkələri arasında bu istiqamətdə ciddi tədbirlər görən ilk ölkələrdən biri oldu. Bizə və övladlarımıza xoşbəxt gələcək vəd edən daxili və xarici siyasətinizi dəstəkləyirəm. Bu dövrdə verdiyiniz hər bir qərar, imzaladığınız sərəncamlar, əhalinin həssas qrupuna aid olan tələbələrin təhsil haqqının dövlət tərəfindən ödənilməsi bir daha sübut etdi ki, Siz ən sadə bir vətəndaşa da necə diqqət və qayğı ilə yanaşırsınız. Mən də bir təhsil işçisi olaraq Sizə inanıram. Sizin bütün çağırışlarınıza riayət edərək bu bəladan tezliklə qurtulacağımıza əminəm. Çünki nə qədər ki, Sizin kimi sözü ilə əməli bir olan rəhbərimiz var, heç bir bəla bizi sarsıda bilməz. Sizin mənəvi dəstəyiniz bizə həyat eşqi, stimul verir. Mən fəxr edirəm ki, Sizin kimi qayğıkeş bir rəhbəri olan Azərbaycan Respublikasında yaşayıram, dahi liderimiz Heydər Əliyevin çox yüksək qiymətləndirdiyi peşə olan müəllim işləyirəm”.

Qaradağ rayonundan məktəbli **Məhəmməd Novruzsoy** yazır: “Əziz Prezidentimiz, mən Şuşa rayon 7 nömrəli tam orta məktəbin 3 “a” sinif şagirdiyəm. Mən də böyüyəndə Sizin kimi vətənini sevən, öz xalqı yolunda əlindən gələni edən bir vətəndaş olacağam. Mənim atam cəsur insanlar yetişdirən Laçın rayonunda, anam isə Azərbaycanın dilbər guşəsi olan Şuşa şəhərində anadan olub. Onlara demişəm ki, mən böyüyəndə hərbçi olacağam, bu işi pul qazanmaqdan ötrü yox, işğalda olan torpaqlarımızı azad etmək üçün seçmişəm. Atam deyir ki, Ali Baş Komandanımız döyüş əmri verəndə, Vətən yolunda döyüşə gedəcəyik. Mən də Sizin əsgəriniz olacağam. İndi biz məktəbə getmirik, evdə onlayn dərslər keçirik. Valideynlərim deyir ki, vəziyyət tezliklə düzələcək, biz yenə də doğma məktəbimizə qayıdacağıq. Çünki Sizin doğru zamanda verdiyiniz qərarlar nəticəsində bizim ölkəmiz dünyanı bürüyən koronavirus pandemiyasından az itkilərlə çıxdı. Cənab Prezidentimiz, Siz televiziyada çıxış edəndə mən Sizə qulaq asıram. Sizin Paşinyana verdiyiniz cavabları atam mənə izah etdi. Mən Sizinlə fəxr edirəm. Çox sağ olun ki, bizim Prezidentimizsiniz”.

Yardımlı rayonunun Ostayır kəndindən **Ağagül Nəbiyev:** “Hörmətli cənab Prezident, mənim 90 yaşım var. Həyatın hər üzünü görmüşəm. Ulu Öndər Heydər Əliyevin dövründə uzun illər məsul vəzifələrdə çalışmışam. O illəri indi də xoş duyğularla xatırlayıram. İndiki koronavirus zamanında xalqımızın sağlamlığı üçün Sizin rəhbərliyinizlə atılan bütün addımları dəstəkləyirəm. Bir daha əmin oldum ki, xalqımızın həyatı, sağlamlığı Sizin üçün hər şeydən önəmlidir. Mehriban xanım Əliyevanın bizim kəndin aztəminatlı ailələrinə göndərdiyi ərzaq yardımı təkcə maddi kömək deyil, həm də onun sübutudur ki, Siz və Mehriban xanım xalqımızın kədərinə də, sevincinə də hər zaman şəriksiniz. Ulu Tanrı birliyimizi, həmrəyliyimizi daha da möhkəm etsin!”

Masallı rayonunun Qasımlı kəndindən **Əfqan Cabbarov:** “Hörmətli cənab Prezident, Sizin yorulmaz və fədakar fəaliyyətinizi, iştirak etdiyiniz tədbirləri və etdiyiniz çıxışları izlədikcə əmin oluruq ki, koronavirus pandemiyasının qarşısının alınması və digər məqsədlər üçün Azərbaycanda həyata keçirilən bütün işlərin mərkəzində insan amili dayanır. Siz əhalinin sağlamlığının təmin olunması məsələsinə çox həssaslıqla yanaşırsınız. Bu qayğılı günlərdə Azərbaycan xalqını düşündüyünüzə, onunla birlikdə olduğunuza görə zati-alinizə təşəkkürümü bildirir, şəxsən öz adımdan və ailəm adından Sizə uzun ömür, cansağlığı arzu edirəm”.

Qazax rayonunun Canalı kəndinin sakini **Orxan Səfərov** dövlət başçısına minnətdarlığını bu sözlərlə ifadə edir: “Hörmətli cənab Prezident, Sizin geniş dünyagörüşünüzə, böyük siyasi təcrübənizə və dərin təfəkkürünüzə əsaslanan qərarlarınız, xalqımızın sağlamlığının qorunması və təhlükəsizliyinin təmin olunması istiqamətində atdığınız addımlar artıq öz nəticəsini verməkdədir. Ümumbəşəri bəla olan koronavirusla mübarizədə dünyanın inkişaf etmiş dövlətlərinin aciz qaldığı bir zamanda Sizin vaxtında gördüyünüz qabaqlayıcı tədbirlər nəticəsində pandemiyadan minimum ziyanla çıxacağımıza ümid bəsləyirik. Pandemiya ilə əlaqədar ölkəmizin digər bölgələrində olduğu kimi, Qazax rayonunda da çox yüksək səviyyədə təxirəsalınmaz tədbirlər həyata keçirildi. Sərhəd bölgəsində yaşayan kənd sakinlərinin, şəhid ailələrinin, qaçqınların və məcburi köçkünlərin, xüsusi qayğıya ehtiyac duyan ahıl insanların və sosial təminat baxımından digər həssas təbəqələrin ehtiyacları yüksək səviyyədə qarşılanmaqdadır. Biz rayonumuzun ictimai fəalları olaraq ölkədə gedən siyasi prosesləri daim izləyir və 2020-ci ili “Könüllülər ili” elan etməyinizdən istifadə edərək, həm müsbət siyasi addımları, həm də rastlaşdığımız çatışmazlıqları Sizin çağırışınıza uyğun olaraq lazımi qurumlara çatdırmağı özümüzə borc bilirik. Biz qazaxlılar Sizin “Biz birlikdə güclüyük!” çağırışınızı bir şüara çevirmişik, Azərbaycan xalqının etibarlı və firavan gələcəyinə, sosial rifahına hesablanmış uzaqgörən siyasətinizi daim dəstəkləyirik”.

Ağstafa rayonunun Dağ Kəsəmən kəndindən **Aidə Maxanova:** “Hörmətli cənab Prezident, bu gün bütün dünyanın bəlasına çevrilmiş koronavirus pandemiyası (COVID-19) ölkəmizdən də yan keçmədi. Bu ağır günlərdə Sizin müdrikcəsinə gördüyünüz qabaqcıl tədbirlər, uzaqgörən siyasətiniz nəticəsində ölkəmiz digər güclü dövlətlərlə müqayisədə olduqca yaxşı mövqedə dayanaraq dünyanın bir çox dövlətlərinə əsl nümunə oldu. Sizin ölkəmiz, xalqımız üçün gördüyünüz işlər hər bir kəsə bəllidir. Bu günlərdəki fədakarlığınız da göz önündədir. Ağır günlərdə daim xalqımızı düşündüyünüz, ona dəstək olduğunuz və onun qayğısına qaldığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Möhtərəm cənab Prezident, ölkə vətəndaşlarının sağlamlığının qorunması naminə gördüyünüz işlərə görə Sizə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya bir mədəniyyət işçisi kimi dərin təşəkkürlərimi bildirir, ətrafınızda sıx birləşərək daim Sizə dəstək olacağımıza söz verirəm. Müstəqil Azərbaycanımızın daha da inkişafı naminə gələcək işlərinizdə Sizə nailiyyətlər arzulayıram”.

Azərbaycan Dövlət İqtisad Universitetinin kafedra müdiri, professor **Arif Şəkərəliyev:** “Möhtərəm Prezident, koronavirus (COVID-19) epidemiyasının bütün dünyanı bürüdüyü, minlərlə insanın bu xəstəlikdən həyatını itirdiyi bir vaxtda Sizin Azərbaycan xalqının sağlamlığının qorunması naminə gördüyünüz qabaqlayıcı tədbirlər ölkənin təhsil işçiləri tərəfindən rəğbətlə qarşılanır. COVID-19 pandemiyasına qarşı apardığınız qətiyyətli mübarizəyə görə Sizə minnətdarıq. Prezidentimizin yolu Heydər Əliyev yolu, Azərbaycan yolu, xalqın gələcəyinin, güzəranının və əhvali-ruhiyyəsinin daha da yaxşılaşdırılması yoludur. Azərbaycan xalqı öz doğma Prezidentinə güvənir və etibar edir. Siz güclü Azərbaycan dövlətinin ideyasını həyata keçirirsiniz. Sizin həyata keçirmiş olduğunuz iqtisadi strategiya islahatların aparılması, innovasiya, yeni texnologiyaların istehsala tətbiqi və qeyri-neft sektorunun inkişafına söykənir. Mənim çalışdığım Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor-müəllim heyəti öz Prezidentinə həmişə sadiqdir. Cənab Prezident, Azərbaycanın ictimai-siyasi həyatında, dövlətçiliyin qorunması, ölkədə sabitliyin bərqərar olunması istiqamətində apardığınız məqsədyönlü fəaliyyətinizdə Sizə böyük uğurlar və cansağlığı arzu edirəm”.

Yasamal rayonunun sakini **Eldəniz Seyidəliyev:** “Möhtərəm cənab Prezident, Siz hər zaman olduğu kimi, ölkəmizin bu çətin günlərində də vətəndaşları, o cümlədən sahibkarları hər zaman diqqət və qayğınızla əhatə edirsiniz. Sirr deyil ki, dünyanın bütün ölkələrində, o cümlədən doğma Azərbaycanımızda böyük maliyyə itkiləri baş vermişdir. Lakin bu dövrdə qəbul etdiyiniz humanist qərarlar, göstərdiyiniz diqqət və qayğı, Azərbaycan xalqının rifahının yüksəldilməsi Sizin üçün prioritet və öndə gedən məsələ olduğunu sübut etmişdir. Göstərdiyiniz bu dəstəyə, diqqət və qayğıya, yürütdüyünüz dayanıqlı siyasətə, hər zaman hər bir Azərbaycan vətəndaşının yanında olduğunuza görə Sizə dərin minnətdarlığımı bildirirəm. Azərbaycan xalqı Sizinlə fəxr edir”.

Sabunçu rayonundan şagird **Nurlan Cəbrayılzadə:** “Möhtərəm cənab Prezident, bu gün Sizin Azərbaycan xalqının rifahı və sağlamlığı üçün gördüyünüz çoxşaxəli tədbirlər həm mənim, həm də bütün Azərbaycan xalqının xoşbəxt və sağlam gələcəyi üçündür. Bizlər hər birimiz çox şanslıyıq ki, bizi daim mühafizə edən və qoruyan Prezidentimiz var. Bu gün mən bir məktəbli kimi deyə bilərəm ki, Sizin təhsilimiz və gəncliyimiz üçün gördüyünüz əvəzsiz xidmətlər danılmazdır. Hazırda bütün dünyanı öz ağuşuna almış koronavirus pandemiyasının kəskin dalğaları Azərbaycan üzərindən çox xəfif keçir. Bütün bunlar isə Sizin əvəzsiz xidmətlərinizin bariz nümunəsidir. Mən 9-cu sinif şagirdi və ölkəmizin tərəqqi yolunda ön sıralarda olduğunun şahidi kimi deyə bilərəm ki, Sizin yorulmaz səyləriniz və tükənməz əməlləriniz sayəsində Azərbaycan inkişaf edib və edəcəkdir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasi kursun layiqli davamçısı kimi Sizin daim Ümummilli Liderimizin azərbaycançılıq ideologiyası ilə irəliləyəcəyinizə hər zaman əminəm. Tam inanıram ki, müstəqil, suveren, azad Azərbaycan Respublikasının taleyi və işıqlı gələcəyi Sizinlə bağlıdır. Sözlərimi Ulu Öndər Heydər Əliyevin sözləri ilə bitirmək istərdim: “Biz müstəqilik, biz azadıq, biz heç kəsdən asılı deyilik, biz özümüz öz taleyimizin sahibiyik”. Mən əminəm ki, Sizin xeyirxah əməlləriniz Azərbaycanı daim zirvələrdə saxlayacaq. Yaşasın Azərbaycan Respublikasının Prezidenti!”

Şəki rayonunun Baş Göynük kəndindən **Elxan Qəniyev:** “Hörmətli Prezidentimiz cənab İlham Əliyev, Azərbaycan xalqına, o cümlədən Şəki camaatına hər zaman, həmçinin koronavirusun yayılmasının qarşısının alınması üçün görülmüş özünütəcrid tədbirləri müddətində göstərdiyiniz diqqətə, atılan addımlara, imkansız ailələrə etdiyiniz maddi yardımlara, gənc kadrların irəli çəkilməsinə, adət-ənənələrimizə uyğun olaraq yaşlı nəslə göstərdiyiniz qayğıya və hörmətə görə şəxsən öz adımdan və Baş Göynük kəndinin sakinləri adından Sizə təşəkkür edirik. Biz bir daha əmin olduq ki, Sizin sayənizdə daim müstəqil, sürətlə inkişaf edən və adət-ənənələrə hörmətlə yanaşılan bir ölkədə yaşayırıq. Siz hər bir Azərbaycan vətəndaşının yanındasınız və bizim əbədi Prezidentimizsiniz”.

# Baş prokuror Kamran Əliyev kollektivə təqdim edilib



**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri Samir Nuriyev və Prezidentin köməkçisi - Prezident Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov respublikanın yeni təyin olunmuş Baş prokuroru Kamran Əliyevi prokurorluğun kollektivinə təqdim edib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təqdimat zamanı çıxış edən Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına xüsusi diqqət və qayğısı, Kamran Əliyevin prokurorluq orqanlarındakı peşə fəaliyyəti barədə danışıb, Zakir Qaralovun prokurorluq orqanlarına rəhbərlik etdiyi dövrdə görülmüş işləri yüksək qiymətləndirib.

Çıxışda prokurorluq orqanlarının ölkənin hüquq sistemində mühüm yeri qeyd edilməklə dövlət başçısı tərəfindən prokurorluq orqanlarının qarşısına qoyulmuş vəzifələrin icrası ilə bağlı məsləhət və tövsiyələr kollektivin diqqətinə çatdırılıb.

Tədbirdə Fuad Ələsgərov çıxış edərək bildirib ki, təməli xalqımızın Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə uğurla davam etdirilən daxili və xarici siyasət sayəsində ölkəmiz günbəgün inkişaf edir və daha da qüdrətlənir. Dövlət başçısının diqqət və qayğısı nəticəsində respublikanın hüquq sisteminin inkişafında, insan hüquq və azadlıqlarının qorunmasında xüsusi yeri və rolu olan prokurorluq orqanları yüksək standartlara və müasir tələblərə uyğun sivil təsisat kimi formalaşıb.

Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev göstərilən etimada görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü bildirərək qeyd edib ki, dövlət başçısının müdrik rəhbərliyi ilə doğma kollektivlə çiyin-çiyinə yüksək etimadı doğrultmaq üçün bütün səylərini səfərbər edəcək, respublikanın digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə dövlətçiliyin, qanunçuluğun və cəmiyyətin cinayətkar qəsdlərdən qorunmasını təmin etməklə ölkəmizdə sabitliyi pozmaq istəyən qüvvələrə qarşı barışmaz mövqe nümayiş etdirəcək.

Kamran Əliyev əminliyini bildirib ki, vətənpərvərlik və peşəkarlıq irsi prokurorluq əməkdaşları tərəfindən daim uca tutulacaq, xalqa və dövlətə sədaqətlə xidmətin əsas prinsiplərini təşkil edəcəkdir.

Tədbirdə iştirak edən Zakir Qaralov Ümummilli Lider Heydər Əliyevin dövlətçilik prinsiplərinin prokurorluq orqanlarında daim rəhbər tutulduğunu xüsusi qeyd edərək fəaliyyətinə verilən yüksək qiymətə görə Prezident İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya dərin minnətdarlığını bildirib.

Çalışdığı müddət ərzində prokurorluq orqanlarına daim verilən yüksək qiyməti, göstərilmiş etimadı doğrultmağa, bu peşəni şərəflə daşımağa səy göstərdiyini vurğulayan Zakir Qaralov son illərdə ölkənin məhkəmə-hüquq sistemində aparılan ciddi islahatların hüquq sistemində prokurorluğun rolunu artırmaqla qarşısına yeni vəzifələr qoyduğunu qeyd edib. O, Kamran Əliyevə xidməti fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayıb.

# Karantin rejiminin yumşaldılması selektiv yanaşma ilə tətbiq ediləcək

Aprelin 27-dən etibarən ölkədə koronavirusa yoluxanların sayının artımı müşahidə olunur.



Hazırda Azərbaycanda iki zidd tendensiya qeydə alınır. Sağalanların sayı yüksəkdir. Həmçinin yoluxanların sayında artım müşahidə olunur. Yəni müsbət və mənfi tendensiyalar paralel inkişaf edir. Lakin həkimlərin fədakarlığı hesabına vəziyyət nəzarət altındadır.

AZƏRTAC xəbər verir ki, bu barədə mayın 1-də keçirilən mətbuat konfransında Nazirlər Kabinetinin Mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov məlumat verib.

“Dünyanın bir çox ölkəsi karantindən çıxma planlarını açıqlayıb. Nazirlər Kabineti yanında Operativ Qərargah da bu iki tendensiyanı nəzərə alaraq karantin rejimini mayın 4-dən 31-dək uzatmaq, eyni zamanda, karantin rejiminin yumşaldılması haqqında qərar qəbul edib. Başqa sözlə, karantin rejimi yumşaldılmış formada davam edəcək. Bu yanaşma xəstəliklə mübarizənin vəziyyətinə adekvat bir yanaşmadır. Karantin rejiminin yumşaldılması selektiv yanaşma ilə tətbiq ediləcək. Yoluxma hallarının faiz etibarı ilə yüksək olduğu Bakı, Sumqayıt, Gəncə və Lənkəran şəhərlərində və Abşeron rayonunda karantindən çıxma yavaş sürətlə, digər ərazilərdə, yəni yoluxmanın minimum olduğu və hətta heç olmadığı yerlərdə yüksək sürətlə həyata keçiriləcək. Beləliklə, ölkə iki kateqoriyaya bölünür və hər birində karantindən çıxma müxtəlif sürətlərlə tətbiq edilir. Buna karantindən iki müxtəlif sürətlə çıxma yanaşması da demək olar”, - deyə İ.Məmmədov qeyd edib.

# Azərbaycan və Britaniya koronavirusla mübarizədə əməkdaşlıq edir

Xarici İşlər naziri Elmar Məmmədyarovun Böyük Britaniya Xarici İşlər Nazirliyində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini (Avropa Qonşuluğu və Amerika üzrə nazir müavini) Vendi Morton ilə onlayn görüşü baş tutub.

Bu barədə AZƏRTAC-a Xarici İşlər Nazirliyindən məlumat verilib. Görüşün əvvəlində Nazir E.Məmmədyarov V.Mortonu yeni təyinatı münasibətilə təbrik edib.

Sonra tərəflər ikitərəfli əməkdaşlıq münasibətlərinin gündəliyinə daxil olan bir sıra məsələləri müzakirə ediblər.

Hazırkı qlobal vəziyyətə toxunan tərəflər, hər iki dövlətin COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində gördüyü tədbirlər və qarşılıqlı dəstək məsələləri üzrə fikir mübadiləsi aparıblar.

Həmçinin nazir E.Məmmədyarov Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların hazırkı mərhələsi ilə bağlı həmsöhbətini maraqlandıran sualları cavablandırıb.

V.Morton ölkəsinin münaqişə ilə bağlı mövqeyinin bəlli olduğunu bildirib və Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü dəstəklədiklərini bir daha qeyd edib.

Sonda tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər, bu xüsusda enerji layihələri ilə bağlı fikir mübadiləsi aparılıb.

# Azərbaycanda koronavirusa 50 yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 50 yoluxma faktı qeydə alınıb, 40 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış, şəkərli diabet, arterial hipertenziya və ürəyin işemik xəstəliyi olan 1957-ci il təvəllüdlü vətəndaş vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 1854 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 1365 nəfər müalicə olunaraq sağalıb, 25 nəfər vəfat edib, 464 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir. Həmin şəxslərdən 15 nəfərin vəziyyəti ağır, 29 nəfərin vəziyyəti orta ağır qiymətləndirilir, digərlərinin səhhəti stabildir.

Ötən müddət ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 146.630 test aparılıb.

# Parlament Prezident İlham Əliyevin təqdimatına razılıq verdi





## K.B.Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 11-ci bəndinə və 133-cü maddəsinin 3-cü bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

1. Kamran Bayram oğlu Əliyevin Azərbaycan Respublikasının Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılıq verilsin.
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 1 may 2020-ci il*

*Əvvəli 1-ci səh.*

2007-ci ildə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi vəzifəsinə təyin edilib. 2014-cü ildə isə Azərbaycan Respublikası Baş prokurorunun müavini - Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi təyin olunub. Onun fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilib. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2008-ci ildə "Azərbaycan bayrağı" ordeni, 2018-ci ildə isə 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilib.

Milli Məclis Sədrinin birinci müavini, parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli dedi ki, Kamran Əliyevin Azərbaycan Respublikası Baş prokuroru vəzifəsinə namizədliyi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclasında müzakirə edilib. Komitə üzvləri Kamran Əliyevin namizədliyini dəstəkləyərək müsbət rəy veriblər. Əli Hüseynli Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyinin irəli sürülməsinin hüquq ictimaiyyəti tərəfindən də müsbət qarşılandığını, onun dövlətçilik ideyalarına və milli maraqlara sadiq olduğunu diqqətə çatdırdı.

Milli Məclisin Sədri Sahibə Qafarova əmin olduğunu bildirdi ki, Kamran Əliyev Azərbaycan dövlətinə ləyaqətlə xidmət edəcək. Çıxışlar zamanı deputatlardan Vahid Əhmədov və Eldar İbrahimov Kamran Əliyevin Baş prokuror vəzifəsinə namizədliyini müsbət qiymətləndirdilər.

Yekunda məsələ səsə qoyuldu və Milli Məclis Kamran Əliyevin Azərbaycan Respublikası Baş prokuroru vəzifəsinə təyin edilməsinə razılığını verdi.

Kamran Əliyev namizədliyinin irəli sürülməsinə və dəstəklənməsinə görə ölkə rəhbərliyinə və Milli Məclisə təşəkkürünü bildirdi. "Prezident İlham Əliyev və Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmizdə sabitlik təmin edilib. Xalqın maraqlarının qorunmasının dövlət siyasətində prioritet olması hazırda dünyada mövcud olan pandemiya şəraitində özünü daha çox göstərməkdədir. Bunlarla yanaşı, hazırda ölkəmizdə iqtisadi və sosial inkişafı hədəfləyən islahatlar keçirilir. Məhkəmə-hüquq sistemində həyata keçirilən islahatlar da bu qəbildəndir. Prezidenti, Birinci vitse-prezidenti və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da prokurorluq orqanları dövlətimizə və xalqımıza ləyaqətlə xidmət edəcək", - deyə o vurğuladı.

## Hesablama Palatası hesabat verdi

Sonra iclasda Azərbaycan Respublikası Hesablama Palatasının illik hesabatı haqqında məsələ müzakirəyə çıxarıldı. Hesabatla Palatanın sədri Vüqar Gülməmmədov çıxış etdi. Qeyd olundu ki, sənəd qanunun tələblərinə uyğun hazırlanıb. Mütərəqqi təcrübə öyrənilib, hesabatda 2018-2020-ci illər üzrə qəbul edilmiş Strateji İnkişaf Planı ilə nəzərdə tutulmuş məqsədlərə dair tədbirlər, Hesablama Palatasının ötən ildəki həm nəzarət, həm də inzibati fəaliyyəti üzrə əsas nəticələr əks etdirilib.

Vüqar Gülməmmədov həyata keçirilmiş nəzarət tədbirləri, müxtəlif büdcə və hesablara bərpa edilmiş vəsaitlər, nöqsanlara yol vermiş vəzifəli şəxslərə tətbiq edilən inzibati tənbeh tədbirləri, səmərəlilik auditləri nəticəsində aşkar olunmuş səmərəsiz xərclər və s. barədə məlumat verdi. Qeyd olundu ki, 2019-cu ildə 47 audit və 6 analitik fəaliyyət həyata keçirilib. İlk dəfə olaraq 4 səmərəlilik auditi aparılıb. Hesabatda 43 maliyyə və uyğunluq auditinin nəticələri icmallaşdırılıb, yol verilən pozuntular təsnifləşdirilib. Ötən il Hesablama Palatası 561 nöqsan müəyyən edib. Hesablama Palatasının sədri auditlərlə yanaşı, Hesablama Palatasının analitik və monitorinq fəaliyyətinin nəticələrini diqqətə çatdırmaqla nəzarət tədbirlərinin əhatə dairəsi ilə bağlı məlumat verdi.

O da bildirildi ki, Hesablama Palatasının verdiyi rəylərdə həm icra, həm də layihə sənədləri ciddi təhlil edilib, mümkün risklər sadalanıb, problemlər göstərilib və onların aradan qaldırılması məqsədilə tövsiyələr verilib. Həmin tövsiyələrin 19-u büdcə qanunvericiliyi, 16-sı gəlirlərin inzibatçılığı, 18-i maliyyə inzibatçılığı və hesabatlılıqla bağlı olub.

Hesabatla bağlı parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin rəyi dinlənildi. Rəyi diqqətə çatdıran komitənin sədri Tahir Mirkişili hesabatın məqbul olduğunu bildirdi.

Milli Məclisin komitə sədrləri Sadiq Qurbanov, Zahid Oruc, Siyavuş Novruzov, Qənirə Paşayeva, deputatlardan Fazil Mustafa, Vahid Əhmədov, Malik Həsənov, Qüdrət Həsənquliyev, Əli Məsimli, Sahib Alıyev, Vüqar Bayramov, Erkin Qədirli, Razi Nurullayev, Sədaqət Vəliyeva hesabata münasibət bildirdilər, təkliflərlə çıxış etdilər. Qaldırılan məsələlərə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli də münasibət bildirdi.

Yekunda Milli Məclisin Sədri Sahibə Qafarova hesabatın yüksək səviyyədə hazırlandığını bildirdi. Hesabat səsə qoyularaq nəzərə alındı.

Fasilədən sonra öz işini davam etdirən Milli Məclisdə öncə "Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə İordaniya Dəniz Komissiyası arasında Dənizçilərin hazırlanmasına, onlara diplom verilməsinə və növbə çəkməyə dair (DHDNÇ) 1978-ci il tarixli Beynəlxalq Konvensiyanın (əlavələrlə) I/10-cu qaydasına uyğun olaraq sertifikatların (diplomların) tanınması haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə qanun layihəsi təsdiqləndi.

Deputatlar həmçinin "Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında vergi inzibatçılığının həyata keçirilməsi üçün elektron formada məlumat mübadiləsi haqqında" Protokolun təsdiq edilməsi barədə qanun layihəsinə müsbət münasibət bildirdilər.

## Cərimə və cəza müddəti ilə bağlı yeni qaydalar təsdiqlənir

Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəlikdəki 5-7-ci məsələ (Cinayət, İnzibati Xətalar məcəllələrində, "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri) Prezident İlham Əliyevin bir məktubu ilə parlamentə daxil olub.

Sənədlərlə bağlı məlumat verən parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bildirdi ki, dəyişikliklər Prezident İlham Əliyevin cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması siyasəti ilə bağlıdır.

Dəyişikliyə əsasən, Cinayət Məcəlləsinə törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla cərimənin yeni müəyyənləşdirilməsi qaydası əlavə edilib. Qüvvədə olan Cinayət Məcəlləsinə əsasən, törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla, 20 min manatadək miqdarda və ya cinayət nəticəsində vurulmuş ziyanın (əldə edilmiş gəlirin) 1 mislindən 10 mislinədək miqdarda cərimə müəyyən olunub. Təklif edilən dəyişikliyə əsasən cərimə, törədilmiş cinayətin ağırlığı və məhkumun əmlak vəziyyəti nəzərə alınmaqla müəyyən olunur.

Dəyişiklikdə cinayətlərin dekriminallaşdırılması təklif edilir, 10 cinayət əməli Cinayət Məcəlləsindən çıxarılır, 25 cinayət əməlinə görə məsuliyyət yaradan hədd artırılır, 3 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunur. Eyni zamanda 30 cinayətə görə azadlıqdan məhrum etməyə alternativ cəzalar (cərimə, islah işləri və azadlığın məhdudlaşdırılması) daxil edilir. 60 cinayətə görə cərimə və ya azadlıqdan məhrumetmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinə edilən dəyişikliyə gəlincə bildirildi ki, sənədə yeni 41-ci fəsil əlavə edilir. Yeni fəslin 610-cu maddəsində (rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin şərəf və ləyaqətini alçaltma) qeyd edilib ki, rəisin, yaxud hərbi qulluq vəzifəsini yerinə yetirən digər şəxsin hərbi xidmət üzrə öz vəzifəsini yerinə yetirməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar şərəf və ləyaqətini alçaltmaya görə 10 gündən 20 günədək müddətə inzibati həbs tətbiq olunacaq. Sənədin yeni 611-ci maddəsində (tabelikdə olan hərbi qulluqçunun şərəf və ləyaqətini alçaltma) isə bildirilib ki, hərbi xidmət üzrə vəzifələrin yerinə yetirilməsi zamanı və ya belə vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar rəisin öz tabeliyində olan şəxsin şərəf və ləyaqətini alçaltmaya görə on gündən iyirmi günədək müddətə inzibati həbs tətbiq olunacaq.

"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən isə xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşının məlumat verməməsinə görə cinayət məsuliyyəti ləğv edilir. Qanuna əsasən, xarici dövlətin vətəndaşlığını qəbul etmiş Azərbaycan vətəndaşı bir ay müddətində bu barədə Xarici İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinə yazılı məlumat verməlidir.

Dəyişikliklər səsverməyə çıxarılaraq III oxunuşda qəbul edildi.

## Peşə təhsili alan əcnəbilərə də ölkəmizdə müvəqqəti yaşamaq hüququ veriləcək

Deputatlar üçüncü oxunuşda müzakirəyə çıxarılan Əmək, Torpaq, Vergi, Gömrük, Şəhərsalma və Tikinti və Miqrasiya məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsinə müsbət münasibət bildirdilər.

Miqrasiya Məcəlləsinə edilən dəyişikliyə əsasən, Azərbaycanda əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkəmizin ərazisində müvəqqəti yaşamaq üçün icazə verildiyi hallar genişləndirilir. Dəyişikliyə əsasən, peşə təhsili alan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə də Azərbaycan ərazisində müvəqqəti yaşamaq hüququ veriləcək.

İclasda həmçinin "Dövlət rüsumu haqqında", "Dövlət satınalmaları haqqında", Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də, "Nağdsız hesablaşmalar haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda səsverməyə çıxarılaraq qəbul edildi.

"Dövlət rüsumu haqqında" qanuna (üçüncü oxunuş) təklif edilən dəyişiklikdə isə peşə təhsili və ümumi təhsil müəssisələrində təhsil alan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərdən ölkəmizdə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumu tutulması təklif edilib. Dəyişikliyə əsasən, peşə təhsili və ümumi təhsili müəssisələrində təhsil alan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə ölkədə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsinin verilməsinə və müddətinin uzadılmasına görə dövlət rüsumu tutulacaq.

İclasda həmçinin "Kimyəvi silahın hazırlanması, istehsalı, artırılması (yığılması) və tətbiq edilməsinin qadağan olunması və onun məhv edilməsi haqqında" qanun layihəsi ikinci oxunuşda təsdiqləndi.

## Valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək

Gündəlikdəki Mənzil Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında", "Gənclər siyasəti haqqında", "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında", "Könüllü fəaliyyət haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Reklam haqqında" və "Uşaqların zərərli informasiyadan qorunması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda geniş müzakirə edildi.

Milli Məclis Sədrinin müavini, parlamentin Gənclər və idman komitəsinin sədri Adil Əliyev bildirdi ki, bu dəyişikliklərlə yetkinlik yaşına çatmayanların idman mərc oyunlarında iştirakı məhdudlaşdırılacaq. Eyni zamanda buna şərait yaradacaq şəxs 500 manat məbləğində cərimələnəcək. Mövcud layihələr gənclərin milli mənəvi dəyərlərə bağlı şəkildə yetişdirilməsinə şərait yaradacaq. Çünki bu oyunlarda iştirak edən gənclər bəzən bir ailənin faciəsinə səbəb olur.

"Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" qanuna edilən dəyişikliyə görə valideyn himayəsindən məhrum olmuş uşaqlara yaşayış sahələri veriləcək. Dəyişikliklə sosial müdafiəyə ehtiyacı olan aztəminatlı gənclərə aid olan valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlara Mənzil Məcəlləsi ilə müəyyən edilmiş qaydada sosial kirayə müqaviləsi əsasında yaşayış sahələri veriləcək.

"Reklam haqqında" qanuna edilən dəyişikliyə əsasən isə uşaq verilişləri zamanı energetik içkilərin reklamı qadağan edilir. Belə ki, energetik içkilərdən istifadə olunması ilə bağlı yetkinlik yaşına çatmayanlara müraciət edilməsi, uşaqlar üçün proqramların (verilişlərin) energetik içkilərin reklamı ilə kəsilməsi qadağan olunur.

## Bu ay cəzasının az hissəsi qalan daha 300-dək şəxs azadlığa çıxa bilər

Müzakirələrdə çıxış edən parlamentin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov bildirdi ki, hazırda Azərbaycanda 3000-ə yaxın qeyri-hökumət təşkilatı Ədliyyə Nazirliyində qeydiyyatdan keçib. Bölgələrdə isə cəmi 202 qeyri-hökumət təşkilatı var. Komitə sədri hesab edir ki, bu təşkilatların regionlarda sayı artırılmalıdır.

Siyavuş Novruzov çıxışı zamanı digər bir məsələyə də toxundu. Vurğuladı ki, Ulu Öndər Heydər Əliyevin humanist siyasəti bu gün də davam etdirilir. Bu günə qədər 68 əfv sərəncamı imzalanıb, 11 Amnistiya Aktı qəbul edilib: "Bunlar kifayət qədər insana şamil olunub. Koronavirusla əlaqədar dövlət başçısı tərəfindən son əfv sərəncamı da kifayət qədər insanı əhatə etdi. May ayı ərzində cəzasının az hissəsi qalan daha 300-dək şəxsin azadlığa çıxması nəzərdə tutulur. Azadlığa çıxan insanların sosial adaptasiyası problemi mövcuddur. Bu insanların 60 faizi yenidən həbsə qayıdır. Çünki adaptasiya prosesində problemlər var. Bu problemi azadlığa çıxandan sonra yox, ona qədər yerində həll etməliyik. Elə cəzalar var ki, onların ictimai təhlükəsi yoxdur. Belə cəzaları kənd təsərrüfatı, inşaat və s. sahələrə yönləndirə bilərik. Bu şəxslər həbs psixologiyası ilə azadlığa çıxır, bir müddətdən sonra yenə hansısa əməlinə görə həbsə qayıdır. Avropa ölkələrinin bu təcrübəsindən istifadə etmək lazımdır. Məsələn, yüngül avtomobil qəzaları və s. kimi cəzalar törətmiş şəxslərə şamil olunan cəza tədbirlərinin müvafiq forması tapılmalıdır. Avropa ölkələrində bu cəzaları törədən şəxslər həftənin 5 günü işləyib evində qalır, həftə sonunu isə həbsxanada keçirir".

## Dövlət dili normalarının pozulmasına görə cərimələr müəyyən edilir

İclasda həmçinin "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Kütləvi informasiya vasitələri haqqında", "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc dəyişikliklə bağlı məlumat verərək bildirdi ki, "Kütləvi informasiya vasitələri haqqında" qanuna edilən dəyişikliyə əsasən, Azərbaycanda dövlət dili normalarının pozulmasına görə cərimələr müəyyən edilir. Yəni kütləvi informasiya vasitələrində dövlət dili normalarına riayət edilməlidir.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən isə kütləvi informasiya vasitələrində, internet informasiya resurslarında və reklam daşıyıcılarında dövlət dili normalarının pozulmasına görə fiziki şəxslər 100 manatdan 200 manatadək, vəzifəli şəxslər 300 manatdan 400 yüz manatadək, hüquqi şəxslər 500 manatdan 1000 manatadək məbləğində cərimə ediləcəklər. Müzakirələrdən sonra dəyişiklik səsə qoyularaq qəbul edildi.

Deputatlar həmçinin "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" və "Azərbaycan Respublikasında dövlət dili haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlərə də ikinci oxunuşda müsbət münasibət bildirdilər.

## Dövlət sahibkara güzəştlər edir

Gündəliyin son 5 məsələsi birinci oxunuşda müzakirəyə çıxarılan sənədlər idi. "Sosial sığorta haqqında" və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanunun layihəsi (birinci oxunuş) dövlət başçısı tərəfindən bir paketdə parlamentə qədim edilib.

Sənədləri təqdim edən Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirdi ki, bu qanun layihəsi "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli sərəncamına uyğun olaraq Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planı ilə əlaqədar hazırlanıb. Əlavə və dəyişikliklər mütərəqqi xarakteri daşıyır. Sənəd iqtisadi fəallığın artırılmasına, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılmasına xidmət edəcək.

Müzakirələrdə çıxış edən deputatlardan Əli Məsimli, Jalə Əliyeva bildirdilər ki, bu dəyişikliklər aztəminatlı ailələrin sosial durumunun yaxşılaşdırılmasına, sahibkarların fəaliyyətinə mühüm töhfə vermiş olacaq.

Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verən parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, qlobal pandemiyaya qarşı aparılan mübarizədə dövlətin gördüyü işlər göz önündədir. Məcəlləyə təklif edilən dəyişikliklər pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə (o cümlədən kiçik və orta sahibkarlığa) bir sıra istiqamətləri əhatə edən vergi güzəştlərinin və tətillərinin verilməsini nəzərdə tutur. Mikro sahibkarlıq subyektlərinə sadələşdirilmiş vergi üzrə 50 faiz güzəştin verilməsi, 2020-ci ilin birinci və ikinci rübü üzrə sadələşdirilmiş vergi hesabatının və mənfəət (gəlir) və əmlak vergiləri üzrə hesabatların verilməsi və hesablanmış verginin büdcəyə ödənilməsinə cari ilin sentyabr ayının 1-dək vergi tətilinin verilməsi nəzərdə tutulur.

Müzakirələrdə çıxış edən deputatlar Əli Məsimli, Azər Badamov, Fatma Yıldırım, Vüqar Bayramov fikir və təkliflərini səsləndirdilər və sənədlər səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi.

İclasda həmçinin Miqrasiya Məcəlləsində, "Turizm haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi, eləcə də Vergi Məcəlləsində, "Qiymətləndirmə fəaliyyəti haqqında" və "İcra məmurları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədlər birinci oxunuşda müzakirəyə çıxarılaraq təsdiqləndi.

## Milli Məclisin Aparatı və İşlər idarəsinin yeni strukturu müəyyən edilib

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarova parlamentdə aparılan struktur islahatları barədə məlumat verərək bildirdi ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən köklü islahatlar ölkəmizin siyasi və ictimai həyatının bütün sahələrini əhatə edib. Bu islahatların əsas məqsədlərindən biri də dövlət hakimiyyəti orqanlarının fəaliyyətini müasir dövrün çağırışları səviyyəsində qurmaqdır: "Prezident Administrasiyası və Nazirlər Kabineti ilə yanaşı Milli Məclis Aparatında da struktur və kadr islahatlarının aparılması zərurəti yaranmışdı. Bununla əlaqədar mən cari ilin aprelin 2-də sərəncam imzalamışdım. Sərəncama əsasən Milli Məclis Aparatında və İşlər idarəsində çalışan dövlət qulluqçuları ştatdankənar elan olunmuş və yeni struktura uyğun ştat cədvəli təsdiq edilənədək onların öz fəaliyyətini əvvəlki ştat cədvəlinə uyğun davam etdirməsi nəzərdə tutulmuşdur. Ötən bir ay müddətində Aparatın və İşlər idarəsinin hər bir bölməsinin fəaliyyəti, hər bir əməkdaşın işi ətraflı və dərin təhlil edilmişdir".

Milli Məclisin Sədri artıq bu işin başa çatdığını vurğulayaraq aprelin 30-da bir neçə yeni sərəncam imzaladığını söylədi. Bu sərəncamlara əsasən Milli Məclis Aparatının və İşlər idarəsinin yeni strukturu, yeni ştat cədvəli təsdiq edilib, dövlət qulluqçularının vəzifələrə təyinatları həyata keçirilib, bir sıra dövlət qulluqçuları ixtisar olunub: "İnanıram ki, həyata keçirilən bu islahatlar parlamentin işinin daha səmərəli təşkil edilməsinə, qanun yaradıcılığı prosesinin təkmilləşməsinə kömək edəcək".

Sədrin çıxışından sonra Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# REGİONLAR



# Qazaxda dövlət başçısının pandemiya ilə bağlı həyata keçirdiyi tədbirlər razılıqla qarşılanır



**Prezident İlham Əliyevin rəhbərliyi altında koronavirus (COVID-19) infeksiyasının Azərbaycanda geniş yayılmasının qarşısının alınması, insanların sağlamlığının qorunması ilə bağlı həyata keçirilən təxirəsalınmaz tədbirlər vətəndaşlarımız tərəfindən razılıqla qarşılanır.**

Dövlət başçısının, eləcə də Nazirlər Kabineti yanında Operativ Qərargahın ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə məqsədilə verdikləri qərarlar, bu istiqamətdə aparılan məqsədyönlü tədbirlər, xüsusilə də "Biz birlikdə güclüyük!" çağırışı bu günlər hər birimiz üçün həyat devizinə çevrilmişdir. Məhz buna görə də respublikamızın hər yerində bu çağırışa qoşulanların sayı gündən-günə artır.

Respublikamızın hər yerində olduğu kimi, Qazaxda da "Biz birlikdə güclüyük!" devizi altında keçirilən xeyriyyə aksiyaları geniş vüsət almışdır. İstər rayon icra hakimiyyəti, istərsə də ayrı-ayrı vətəndaşlar həmrəylik nümayiş etdirərək qayğıya ehtiyacı olan aztəminatlı ailələrə, eləcə də rayonda məskunlaşan məcburi köçkün ailələrinə dəstək olur, onlara lazımi ərzaq məhsulları çatdırırlar.

Elə bu günlərdə Milli Məclisin deputatı Səməd Seyidovun rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşovla rayonun işğal olunmuş Barxudarlı, Sofulu kəndlərindən olan məcburi köçkün ailələrinin, eləcə də Orta Salahlı kəndində qayğıya ehtiyacı olan aztəminatlı ailələrin yanında olması məhz bu birliyin əsl nümunəsidir. Görüş zamanı icra başçısı Rəcəb Babaşov ölkəmizdə koronavirus pandemiyasının geniş yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması ilə bağlı görülən işlərin xalqımız tərəfindən yüksək qiymətləndirildiyini bildirmiş, dövlət başçısının və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın azərbaycanlıların hər zaman, xüsusilə çətin anlarda bir-birilərinin yanında olduğunu diqqətə çatdırmışdır. Bildirmişdir ki, bu günə kimi Qazax Rayon İcra Hakimiyyəti və "Qazax" Xeyriyyə İctimai Birliyinin üzvləri tərəfindən ümumilikdə 5 mindən artıq aztəminatlı ailəyə dəstək olunmuş və lazımi ərzaq bağlamaları çatdırılmışdır.










Sonra Milli Məclisin deputatı Səməd Seyidov çıxış edərək demişdir ki, bu gün hər bir Azərbaycan vətəndaşının dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışına səs verməsi, onların qayğıya ehtiyacı olan insanlarımıza dəstək olması bir daha onu göstərir ki, Azərbaycan xalqı hər zaman çətin məqamlarda yumruq kimi birləşməyi bacarır və bundan sonra da bacaracaq. Çünki ölkə vətəndaşları bu gücü, bu əzmi ölkə başçısından alır. Onun qətiyyətli addımları sayəsində bütün çətinliklərin öhdəsindən layiqincə gələ bilirik. Dövlət başçısının müdrik və uzaqgörən siyasəti sayəsində Azərbaycan dövləti dünyada öz gücünü, qüdrətini nümayiş etdirə bilir.

Sonra Barxudarlı kəndindən məcburi köçkün düşmüş 42 ailəyə, Sofulu kəndindən məcburi köçkün düşmüş 20 ailəyə, Orta Salahlı kəndindən 98 ailə olmaqla, ümumilikdə 160 aztəminatlı ailəyə gündəlik tələbatı ödəyəcək ərzaq məhsullarından ibarət sovqat paylanmışdır. Özündə birliyi, həmrəyliyi, dövlət qayğısını əks etdirən bu nəcib təşəbbüs vətəndaşlar tərəfindən böyük razılıqla qarşılanmışdır.

Hər zaman beynəlxalq səviyyəli mötəbər yarışlarda, çempionatlarda və olimpiadalarda qazandığı qələbələrlə, əldə etdiyi nailiyyətlərlə ölkəmizi layiqincə təmsil edən, üçrəngli Azərbaycan bayrağını yüksəkliklərdə dalğalandıran, Dövlət himnimizi səsləndirən "Şöhrət" ordenli məşqçi, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Firdovsi Umudov öz nəcib və xeyirxah əməlləri ilə də ürəkləri fəth edib. Həmişə qayğıya ehtiyacı olan insanların yanında olan F.Umudov bu dəfə də onları tək qoymayıb. Dövlət başçısının "Biz birlikdə güclüyük!" çağırışına və Qazax Rayon İcra Hakimiyyətinin təşəbbüsünə qoşulan görkəmli idman ustası hər zaman qazaxlıların, həmyerlilərinin yanında olduğunu bir daha nümayiş etdirdi. O, koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar Qazaxda qayğıya ehtiyacı olan aztəminatlı ailələrə dəstək olmaqla, sözün əsl mənasında birlik, həmrəylik nümayiş etdirmişdir. F.Umudov "Gənc könüllülər"lə birlikdə Qazax Rayonlararası Gözdən Əlillər Cəmiyyətinin 69 nəfər imkansız əlil üzvünə, Yuxarı Əskipara kəndindən olan məcburi köçkün olan 32 ailəyə, eləcə də 100-ə yaxın aztəminatlı rayon sakininə ərzaq məhsullarından ibarət sovqat paylamışdır.

Dövlət başçısının çağırışına qoşulan Qazax "Saloğlu" mebel fabriki də xeyriyyə aksiyasında fəallıqla iştirak edir. Müəssisənin kollektivi birlik və həmrəylik nümayiş etdirərək, məcburi köçkün və aztəminatlı ailələrin yanında olur, onlara gündəlik tələbatını ödəyəcək müxtəlif ərzaq məhsullarından ibarət sovqat paylayır. Göstərilən bu qayğıya görə dövlət başçısına minnətdarlığını bildirən sakinlər xeyriyyə aksiyalarını yüksək dəyərləndirmişlər. Belə bir çətin günlərdə onları yada salan "Saloğlu" mebel fabrikinin rəhbərliyinə təşəkkür etmişlər.

Prezident İlham Əliyevin "Biz birlikdə güclüyük!" çağırışına qoşulanlar arasında "Hilal" Sosial Araşdırmalar İctimai Birliyinin sədri Arzuman Abdulkərimov da var. Ürəyi hər zaman doğma el-obası ilə döyünən, çətin anlarda həmyerlilərinin yanında olan birliyin sədri bu dəfə də qazaxlıları tək qoymadı. O, 50 aztəminatlı ailəyə dəstək olaraq ərzaq sovqatından ibarət bağlamalar payladı.

Ümumiyyətlə, Qazax Rayon İcra Hakimiyyəti çalışır ki, bu çətin günlərdə rayon sakinlərindən heç biri göstərilən yardımdan kənarda qalmasın. Elə bu günlərdə hemodializ müalicəsi alan xəstələr, eləcə də 5 və daha çox uşağı olan ailələr də bu qayğını görmüşlər. Rayon icra hakimiyyətinin rəhbər şəxsləri həmin insanların evlərində olmuş, onlara ərzaq yardımı çatdırmışlar. Bundan başqa, Qarabağ müharibəsi və Çernobıl əlilləri də unudulmamış, onlara da ərzaq yardımının edilməsi diqqət mərkəzində saxlanılmışdır.

Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov rayonun daim atəş altında olan sərhəd kəndlərində - Quşçu Ayrım, Məzəm, Fərəhli, Cəfərli, Bala Cəfərli kəndlərinə gələrək sakinlərin problemləri ilə maraqlanır. Koronavirus başlayandan bir neçə dəfə həmin kəndlərdə görüşlər keçirmiş, sakinlərə ərzaq sovqatları paylanmışdır. Sonuncu dəfə 516 ailə bu sovqatdan yararlanmışdır.

Rayonda ahıl çağlarını yaşayan Böyük Vətən müharibəsi iştirakçıları və uzunömürlülər də unudulmamışdır. "Gənc könüllülər"in və rayon icra hakimiyyətinin vəzifəli şəxslərinin iştirakı ilə 3 nəfər Böyük Vətən müharibəsi iştirakçısına və 11 nəfər uzunömürlü sakinə ərzaq məhsullarından ibarət sovqat paylanmış, onlar tibbi müayinədən keçirilmişlər. Kəmərli kənd sakinləri - 113 yaşlı Səyalı Nəbiyeva və 108 yaşlı Leyli İsgəndərova, Aşağı Salahlı kənd sakinləri - 108 yaşlı Səkinə Mirzəyeva və 100 yaşlı Qəndəf Hacıyeva, Daş Salahlı kənd sakinləri - 104 yaşlı Lilpar Həsənova, 100 yaşlı Səyalı Alıisgəndərova, 100 yaşlı Hava Rəhimova, 100 yaşlı Validə Vəliyeva, Çaylı kənd sakini - 104 yaşlı Qaratel Bənnayeva, Aslanbəyli kənd sakini - 102 yaşlı Xalça İbrahimova göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıq etmişlər.

Rayonda əhalinin ərzaq təminatı ilə yanaşı, onların koronavirusdan qorunması üçün də təxirəsalınmaz tədbirlər görülür. Qazax Rayon İcra Hakimiyyətində yaradılmış Operativ Qərargah, demək olar ki, bu sahədə başlanan maarifləndirmə işlərini daim davam etdirir. Rayon rəhbərliyi Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün qərarlarına əməl etməklə əhalinin sağlamlığının qorunması istiqamətində çoxsaylı tədbirlər həyata keçirir. Rayon ərazisində olan bütün yaşayış məntəqələri, eləcə də küçə və meydanlar, park və xiyabanlar, ticarət və xidmət obyektləri, çoxmənzilli binaların giriş hissəsi bir neçə dəfə dezinfeksiya edilmişdir. Hazırda bu iş davam etdirilir.

Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya elan olunan koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində bütün dövlətlər kimi, Azərbaycan da təxirəsalınmaz tədbirlər həyata keçirir. Sevindirici haldır ki, dövlət başçısının bu sahədə atdığı qətiyyətli addımlar, xalqımıza göstərdiyi diqqət və qayğı sayəsində bu gün müsbət nəticələr əldə edilir. Bu nəticələrin əldə edilməsində heç şübhəsiz ki, həkimlərin, tibb işçilərinin də rolu olduqca böyükdür. Xəstə yaxınlarının ümid yerinə çevrilən həkimlərin və tibb işçilərinin koronavirus infeksiyası ilə mübarizə tədbirlərində gördükləri işlər danılmazdır. Onlar mürəkkəb şəraitdə gərgin əmək sərf edərək sutka ərzində demək olar ki, fasiləsiz çalışırlar. Qazax Rayon Mərkəzi Xəstəxanasının Yoluxucu xəstəliklər şöbəsində çalışan həkimlər və tibb işçiləri də ölkəmizdə yaşanan bu çətin vəziyyətdə, xüsusi karantin rejimi dövründə koronavirusla mübarizədə əsl güc, dəyanət nümayiş etdirirlər. Söz yox ki, onların bu vətənpərvərliyi rayon icra hakimiyyəti tərəfindən daim hörmət və ehtiramla qarşılanır. Tez-tez əlaqə saxlanılaraq problemlərinin həlli ilə bağlı köməkliklər göstərilir.

Bu günlərdə Qazax Rayon İcra Hakimiyyətinin başçısı növbəti dəfə xəstəxanada olmuş, Yoluxucu xəstəliklər şöbəsində çalışan həkimlər və tibb işçiləri ilə görüşmüşdür. Son illər ölkəmizdə səhiyyə sahəsinə göstərilən dövlət qayğısından danışan icra başçısı bunun bariz nümunəsi olaraq martın 3-də dövlət başçısının iştirakı ilə istifadəyə verilən Qazax Rayon Mərkəzi Xəstəxanasını misal göstərmişdir. Qeyd etmişdir ki, ölkə rəhbəri İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bütün çətin anlarda xalqın yanında olması, ölkə vətəndaşlarına çağırışlar etməsi bir daha sübut edir ki, Azərbaycanda vətəndaş amili, xüsusilə onların sağlamlığı və təhlükəsizliyi hər zaman prioritet məsələ olub və bundan sonra da olacaqdır.

Görüş zamanı rayon Mərkəzi Xəstəxanasının Yoluxucu xəstəliklər şöbəsində, eləcə də təcili və təxirəsalınmaz tibbi yardım stansiyasında çalışan tibb işçilərinin əməyini yüksək qiymətləndirən icra başçısı onlara minnətdarlığını bildirmişdir. Sonra karantin rejimi dövründə vəzifə səlahiyyətlərini layiqincə yerinə yetirdiklərinə görə şöbənin həkim və tibb işçilərinə rayon icra hakimiyyətinin fəxri fərmanları və mükafatlar təqdim olunmuşdur.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Muxtar respublikada nümunəvi təsərrüfat sahiblərinə ödənişsiz texnikalar verilib

**"Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən muxtar respublikaya bu il tələbata uyğun olaraq 5 ədəd südsağan qurğu gətirilib.**

Texnikalar 1200 manata lizinq, nağd və köçürmə yolu ilə sahibkarlara təklif edilir. Alınan texnikalar dünyanın qabaqcıl ölkələrinin istehsalıdır.

Kiçik ailə təsərrüfatları üçün nəzərdə tutulan avadanlıqlardan bir neçəsi nağd ödəmə yolu ilə satılıb. O cümlədən bu texnikalar Dövlət Məşğulluq Xidməti tərəfindən özünüməşğulluq proqramına cəlb edilən nümunəvi təsərrüfat sahiblərinə də ödənişsiz olaraq verilir.

Südsağan qurğu ilə təmin edilən ailə təsərrüfatçısı Həsən Cəfərov dövlətimizə minnətdarlığını bildirərək qeyd edib ki, südsağan avadanlıqların istifadəsindən sonra sağılan südün miqdarı da artıb.

Kənd təsərrüfatı texnikaları lizinqə verilərkən dəyərinin 20 faizi ödənildikdə dövlət büdcəsi hesabına onların ilkin dəyərinin 40 faizi həcmində güzəşt tətbiq edilir. Həyata keçirilən bu tədbirlər aqrar sahənin, sahibkarlığın inkişafına göstərilən diqqət və qayğının daha bir nümunəsidir.

Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri bu il martın 18-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınan yeni kənd təsərrüfatı texnikalarına baxış keçirən zaman kənd təsərrüfatında yeni innovasiyaların tətbiqinin əhəmiyyətini vurğulayıb, texnikalarla təminat və texniki qulluq işinin diqqətdə saxlanılması, sahibkarların tələbatına uyğun kənd təsərrüfatı texnikalarının və onların ehtiyat hissələrinin alınıb gətirilməsi, eləcə də maarifləndirmə işlərinin aparılması barədə tapşırıqlar verib.

## Hacıqabulda çiyid səpini başa çatıb

Hacıqabulda çiyid səpini başa çatıb. Ötən il 780 ton xam pambıq istehsal edən hacıqabullu pambıqçılar cari ildə də yüksək əhvali-ruhiyyə ilə çalışırlar.



Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bildiriblər ki, 26 torpaq mülkiyyətçisi ilə müqavilə bağlanılıb, şum, arat, malalama işləri vaxtında həyata keçirilib, səpin üçün yüksək reproduksiyalı toxum tədarük olunub. İstehsal müəssisələri və "Aqrolizinq" ASC tərəfindən göstərilən dəstəkdən bəhrələnən pambıqçılar qısa müddətdə 270 hektar sahədə səpin aparıblar ki, bu da nəzərdə tutulduğundan 10 hektar çoxdur. Səpin aparılan sahələrdə normal bitiş alınıb.

## Füzuli kümçülərinə 1250 qutu ipəkqurdu toxumu paylanılıb

**Ötən il Füzuli rayonunda 49,5 ton barama istehsal olunub. Yetişdirilən məhsulun bəhrəsini görən kümçülər cari ildə daha çox məhsul istehsal etməyi qarşıya məqsəd qoyublar.**

Rayon icra hakimiyyətinin sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsindən bildiriblər ki, Qax Damazlıq İpəkçilik Stansiyasından 1250 qutu (23 min 750 qram) ipəkqurdu toxumu gətirilərək baramaçılıqla məşğul olmaq istəyən ailələrə paylanılıb. Cari mövsümdə 50 tondan çox barama istehsalı nəzərdə tutulub.

Qeyd edək ki, bir neçə ildir Füzuli rayonunda ənənəvi təsərrüfat sahələrindən olan baramaçılığın bərpa edilməsinə başlanılıb. 2016-cı ildə 3070 kiloqram, 2017-ci ildə 24 ton 320 kiloqram, 2018-ci ildə 38 ton, 2019-cu ildə isə 49,5 ton barama istehsal olunub. İpəkqurdunun yem bazasının bərpası məqsədilə 2016-2019-cu illərdə rayon ərazisində 200 min ədədə qədər tut tingi əkilib.

## Şəmkirdə istixanalarda becərilən pomidor Rusiya bazarlarına ixrac edilir

Xüsusi karantin rejimi dövründə əhalinin kənd təsərrüfatı məhsulları ilə təminatı prioritet məsələlərdən biridir.





Buna görə də fermerlərin becərdikləri məhsulların karantin rejimi dövründə bazarlara çıxarılmasında hər hansı bir məhdudiyyət yoxdur.

Şəmkirdən gündəlik olaraq istər ölkə, istərsə də xarici bazarlara müxtəlif tərəvəz məhsulları, o cümlədən pomidor göndərilir. Fermer Elmir Hüseynov bildirib ki, istixanada çalışan işçilərin gündəlik iş yerlərinə gəlməsində çətinlik yoxdur. "Məhsuldarlıq da pis deyil. Əsas satışımız Rusiya bazarlarınadır. Satış zamanı bir problem yaşanmır. Alıcılar məhsulu gəlib birbaşa istixanadan götürürlər. Biz isə heç yerə getmirik və öz işimizlə məşğuluq. Yəni satışa vaxt sərf etmirik", - deyə şəmkirli fermer qeyd edib.

O ki qaldı satışa, Şəmkir istixanalarında becərilən pomidora Rusiya bazarlarında geniş tələbat olduğundan bu ölkəyə ixrac edilir. Rayonun bir neçə tədarük məntəqəsində toplanan tərəvəz TIR-lara yığılaraq göndərilir. Hər gün təxminən 400 tona yaxın, yəni 20-dək TIR yola salınır. Ölkəmizin tərəvəz məhsulları ilə təminatında Şəmkir rayonunun böyük payı var. Burada əksər kəndlərdə demək olar ki, istixana təsərrüfatları salınıb. Hər gün paytaxt Bakıya, eləcə də digər şəhər və rayonlara Şəmkirdən tərəvəz məhsulları daşınır.

Qeyd edək ki, Şəmkirdə istixana şəraitində 950 hektar sahədə pomidor becərilib. Koronavirus pandemiyası bu tərəvəzin qiymətinə də təsirsiz ötüşməyib. Müqayisə üçün deyək ki, ötən il aprel-may aylarında bir kiloqramı 3-4 manata satılan pomidor, indi 1 manat 50 qəpiyə - 2 manata təklif edilir.

## Ucarlı sahibkarlar 40 aztəminatlı ailəyə ərzaq yardımı göstəriblər

Koronavirus pandemiyası təhlükəsi ilə əlaqədar respublikamızda davam edən karantin rejimi dövründə Ucar rayonunda da tənha ahıl insanlara və aztəminatlı ailələrə ərzaq yardımı davam edir.

Rayon icra hakimiyyətindən bildirilib ki, ötən gün rayonda fiziki şəxs kimi fəaliyyət göstərən sahibkarlar tərəfindən 40 aztəminatlı ailəyə ərzaq yardımı göstərilib. Hər ailə üçün hazırlanan ərzaq bağlamasına gündəlik tələbat malları, o cümlədən qənd, çay, şəkər tozu, düyü, makaron və sair məhsullar qoyulub.

*AZƏRTAC*

# Biz birlikdə güclüyük!

## *Operativ Qərargah:* Ölkə ərazisində xüsusi karantin rejimi mayın 31-dək uzadıldı

**Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə bağlı Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyət, digər dövlətlərdə tətbiq olunan preventiv tədbirlər, eləcə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələri təhlil edilərək xüsusi karantin rejiminin müddəti 31 may 2020-ci il saat 00:00-dək uzadılıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, eyni zamanda, əhali arasında virusa yoluxma sürəti, xəstələrin sağalma dinamikası nəzərə alınaraq, tətbiq edilən bir sıra məhdudiyyətlərin yumşaldılmasına dair qərar verilib.

Məhdudiyyətlərin yumşaldılması mövcud sanitar-epidemioloji vəziyyət, xəstə sayı və yoluxma sürəti əsas götürülərək Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri, Abşeron rayonu və digər regionlar üzrə mərhələ ilə həyata keçirilir.

Bununla əlaqədar Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu üzrə 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- dövlət qurumlarının işçilərinin fəaliyyəti müəyyən olunmuş sayda bərpa olunur (fəaliyyəti bərpa olunan dövlət qurumlarının işçilərinin say həddi Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən ediləcəkdir);
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonu istisna olmaqla respublikanın digər rayon və şəhərlərində və Naxçıvan Muxtar Respublikasında 4 may 2020-ci il saat 00:00-dan etibarən:

- yaşayış yerini SMS icazə ilə, "icaze.e-gov.az" portalında qeydiyyatdan keçməklə, xidməti vəsiqə və ya iş yeri barədə arayış əsasında tərk etmək sistemi ləğv olunur;
- "DOST" mərkəzləri xidmət göstərdikləri ərazilər üzrə ünvanlı dövlət sosial yardımı və sosial sahə üzrə bank kartlarının təqdim olunması istiqamətlərində fəaliyyətini bərpa edir;
- dövlət qurumlarının işçilərinin tam sayda fəaliyyəti bərpa olunur;
- restoran, kafe və çay evlərində müştərilərə yerində xidmətlər bərpa olunur (ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadə istisna olmaqla);
- bulvar, park və istirahət məkanlarına girişə tətbiq olunan məhdudiyyət götürülür;
- qeyd olunan ərazilərdə rayonlar və şəhərlərarası gediş-gəliş bərpa olunur (ictimai nəqliyyatla sərnişindaşıma xidməti istisna olmaqla);
- xüsusi karantin rejimi dövründə fəaliyyətinə məhdudiyyət tətbiq olunan müxtəlif sahələrdə digər sahibkarlıq subyektlərinə iş və xidmətlər təqdim edən hüquqi və fiziki şəxslərin fəaliyyəti bərpa edilir;
- bütün sahələr üzrə fərdi ticarət obyektlərinin fəaliyyəti bərpa olunur;
- bərbərxanalar, gözəllik salonları və kosmetik xidmətlər üzrə fəaliyyət bərpa olunur;

Xüsusi karantin rejimində respublika üzrə ictimai yerlərdə, bulvarlarda və parklarda, eyni zamanda, ictimai iaşə obyektlərində bir yerdə insanların 10 nəfərdən artıq qruplarda cəmləşməsi qadağandır.

Respublika üzrə bütün təhsil müəssisələrində tədris, təlim tərbiyə prosesinin dayandırılması 31 may 2020-ci il tarixinədək uzadılır.

Bakı, Sumqayıt, Gəncə, Lənkəran şəhərləri və Abşeron rayonunda məhdudiyyətlər aradan qaldırılan sahələrdə işləyən şəxslər barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra onların hərəkətinə yol verilir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların, habelə ticarət və xidmət sahələrinin fəaliyyəti Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən təqdim olunan zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilməlidir.

Bir daha hamını şəxsi gigiyena, eləcə də tibbi-profilaktik qaydalara əməl etməyə, yalnız zəruri hallarda evdən çıxmağa, ictimai yerlərdə digər şəxslərlə minimum kontaktda olmağa, dövlət tərəfindən həyata keçirilən tədbirlərə yaxından dəstək göstərməyə, Operativ Qərargahın tələb və tövsiyələrinə əməl etməyə çağırırıq.

Növbəti mərhələdə sanitar-epidemioloji vəziyyətdən asılı olaraq mövcud məhdudiyyətlərdən daha bir qisminin aradan qaldırılması ilə bağlı qərar veriləcəkdir.

Qeyd edək ki, COVID-19 virusu ilə bağlı ölkədəki sanitar-epidemioloji vəziyyət mütəmadi təhlil edilərək müvafiq qaydalar tətbiq olunur. Bu səbəbdən COVID-19 virusuna yoluxma dinamikası və xəstəliklə bağlı ölkədəki vəziyyət zərurət yaradarsa, xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi mümkündür.

*Əvvəli 1-ci səh.*

Şəhərlərarası nəqliyyatın və Bakı Metropoliteninin fəaliyyəti tam dayandırıldı. Aprelin 5-dən etibarən bir sıra dövlət və özəl qurumların fəaliyyətinə cəlb edilmiş şəxslər istisna olmaqla, bütün vətəndaşların yaşayış yerini tərk etməsinə konkret müəyyən olunmuş hallarda və vaxt çərçivəsində SMS icazə sistemi vasitəsilə icazə verildi. Beynəlxalq ticarət daşımaları istisna olmaqla, qarşılıqlı anlaşma və əlaqələndirmə şəraitində qonşu dövlətlərlə yerüstü və hava nəqliyyatı bağlantıları, digər ölkələrlə beynəlxalq hava sərnişin daşımaları dayandırıldı. Ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi üçün yeni, ən müasir standartlar səviyyəsində olan əlavə tibbi laboratoriyalar alındı, diaqnostik alətlər və tibbi ləvazimatlar vaxtında ölkəyə gətirilərək tibb müəssisələrinə təhvil verildi.

Pandemiya ilə mübarizə çərçivəsində səhiyyə, sosial, iqtisadi və s. sahələrdə müxtəlif istiqamətlərdə işlər görülür. Dövlət koronavirusun Azərbaycanda geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşının sağlamlığını qorumaq üçün lazımi hər bir tədbiri həyata keçirir.

Prezident İlham Əliyevin tapşırığına əsasən həyata keçirilən bu cür zəruri qabaqlayıcı və səmərəli tədbirlər artıq öz effektini verməkdədir. Məhz pandemiyanın təsirinin azaldılması və miqyasının məhdudlaşdırılması istiqamətində dövlət tərəfindən vaxtında atılan mühüm addımlar, eləcə də karantin rejiminin tətbiqi nəticəsində ölkədə COVID-19-la bağlı vəziyyət nəzarət altına alınıb, insanların koronavirusa kütləvi yoluxma hallarının azaldılmasına nail olunub. Dünya dövlətləri ilə müqayisədə Azərbaycanda koronavirusa yoluxma və ölüm halları azdır. Sağalmalar isə kifayət qədər yüksəkdir. Koronavirusla bağlı son günlərin rəqəmləri də ölkədə pozitiv statistikanın tendensiya halını almasına dair göstəricidir. Azərbaycan bu gün dünyanı bürümüş pandemiyaya qarşı mübarizədə ən ciddi tədbirlər görmüş və uğur qazanmış ölkələr sırasındadır.

### Təhlükə hələ tam sovuşmayıb

Nazirlər Kabineti yanında Operativ Qərargah da COVID-19 virusu ilə bağlı hazırkı sanitar-epidemioloji vəziyyəti, xüsusilə xəstəliyin yayılma dinamikası və coğrafiyası, karantin zonalarındakı şəxslərin sıxlığı, onlar arasında virusa yoluxma hallarını təhlil edərək aprelin 27-dən məhdudiyyətlərin bir qisminin yumşaldılmasına qərar verdi. Yaşayış yerini tərk etmək üçün 8103 nömrəsinə SMS məlumat göndərilərkən gələn icazələrin müddəti 2 saatdan 3 saatadək artırıldı.

Lakin bu qərardan sonra əhali arasında bir arxayınlaşma, laqeydlik nəzərə çarpmaqdadır. Xüsusi karantin rejiminin yumşaldılması ilə əlaqədar əhalidə təhlükənin sovuşması əhvali-ruhiyyəsi yaranmaqdadır. Paytaxtın Nizami küçəsi və Fəvvarələr meydanında dükanların fəaliyyətə başlamasından istifadə edən bəzi vətəndaşlar nəsə almağa ehtiyac olmadığı təqdirdə SMS icazə alaraq gəzməyə çıxırlar. Üstəlik tibbi maska taxmadan...

Bəli, yazdır, hava gözəldir, evdə oturmaq çətindir. Hər kəs gəzmək, təbiətin, şəhərimizin gözəlliyindən zövq almaq istəyir. Amma unuduruq ki, COVID-19 xəstəliyi uzunmüddətli prosesdir. Təhlükə hələ tam sovuşmayıb. Yoluxma halları davam edir. Ona görə də indiki vəziyyətdə hər şey insanlara bağlıdır. Karantin rejimindəki məhdudiyyətlərin bəzisi aradan qaldırıldığı üçün insanlar profilaktik tədbirlərə, sanitar normalara uyğun davranmasa, əhali arasında virusa yoluxmada artım ola və prosesin ikinci dalğası başlaya bilər. Bu səbəbdən hamının sosial məsuliyyətdən irəli gələrək mövcud qaydalara və şəxsi gigiyenaya, zəruri profilaktik tədbirlərə əməl etməsi olduqca vacibdir. Çölə çıxarkən tibbi maska və əlcək taxmağa laqeyd yanaşılmamalıdır. Əlləri tez-tez və 20 saniyədən az olmamaq şərtilə sabunla, spirt tərkibli antiseptik vasitələrlə yumaq lazımdır. Öskürərkən və ya asqırarkən ağızı bükülmüş dirsək və ya salfet parçası ilə örtməli, daha sonra isə həmin salfet parçasını bağlı zibil qutusuna atmalıyıq. Vətəndaşlar əvvəlki dövrdə olduğu kimi, 2 metrlik distansiya tələbinə riayət etməlidirlər.

## Arxayınlaşmaq tezdir: təhlükə hələ qalır

### İnsanlar profilaktik tədbirlərə uyğun davranmasa, prosesin ikinci dalğası başlaya bilər



### Virusun ikinci dalğası qayıda bilər

Azərbaycanda koronavirusun müayinəsi və müalicəsini həyata keçirən Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyinin (TƏBİB) rəhbəri Ramin Bayramlı brifinq zamanı karantin tədbirlərinin tam aradan qaldırılması ilə ikinci dalğanın qayıtması, virusun yayılması təhlükəsinin ola biləcəyinə diqqət çəkmişdi: "Karantin rejiminin tətbiqi nəticəsində əldə olunan nailiyyətlər qətiyyən laqeydlik yaratmamalıdır. Vaksinasiya problemi həll edilməyənədək virusun əhali arasında yayılma riski böyükdür. Vaksinasiyanın bir il ərzində tapılması proqnozlarını nəzərə almalıyıq".

Dövlət başçısı İlham Əliyev aprelin 24-də Sumqayıt şəhərinə çəkilən magistral qaz kəmərinin açılışında karantin müddətində daim monitorinq aparılacağını qeyd etdi: "Əgər bu yumşalmadan sonra görsək ki, vəziyyət mənfi istiqamətə gedir, məcbur olub yenə də sərtləşdirəcəyik. Ona görə də bir daha demək istəyirəm ki, əsas məsələ vətəndaşların sağlamlığıdır, onların həyatıdır".

Baş Nazir Əli Əsədov Nazirlər Kabineti yanında Operativ Qərargahın iclasında bildirmişdi ki, yoluxma hallarının təkrar artacağı halda Operativ Qərargah xüsusi karantin rejiminin yenidən sərtləşdirilməsi haqqında qərar qəbul edə bilər.

Bəli, xüsusi karantin rejimindəki mövcud məhdudiyyətlərin sanitar-epidemioloji şəraitdən asılı olaraq mərhələli yumşaldılması zəruridir. Amma vətəndaşlar bilməlidirlər ki, epidemioloji vəziyyət tələb edərsə, xəstəliyin dinamikasında artım olarsa, yoluxma sürəti çoxalarsa, karantin rejimi yenidən sərtləşdiriləcək və müvafiq məhdudiyyətlər tətbiq olunacaq.

### Ən böyük məsuliyyət vətəndaşların üzərinə düşür

Koronavirusun Azərbaycanda geniş vüsət almasına imkan verməmək, infeksiyaya yoluxmanın sürətini azaltmaq, vətəndaşların sağlamlığını qorumaq üçün hökumət tərəfindən bütün lazımi tədbirlər həyata keçirilir. Ölkəmizdə görülən bütün işlər, qəbul edilmiş qərarlar bir məqsəd güdür - vətəndaşların sağlamlığını maksimum dərəcədə qorumaq. Lakin xəstəliklə mübarizədə müsbət nəticələrə nail olmaq üçün təkcə dövlət tərəfindən görülən işlər kifayət deyil. Ən böyük məsuliyyət vətəndaşların üzərinə düşür. Dövlətin gördüyü tədbirlərin effektivliyi həm də fərdi qaydada hər bir vətəndaşın üzərinə düşən məsuliyyəti yerinə yetirməsindən asılıdır. Unutmayaq ki, hər bir məsuliyyətsizlik, hər bir qayda pozuntusu koronavirusa yoluxmaq və nəinki öz canını, ətrafdakıların da həyatını təhlükəyə atmaq deməkdir.

Məhdudiyyətlərin bir qismi aradan qaldırılsa da, virusa yoluxma sürətinin qarşısını almaq, xəstəliyin yeni dalğasına yol verməmək üçün kütləvi tədbirlər, toplantılar keçirilməməli, vətəndaşlar şəxsi gigiyena qaydalarına, əvvəlki dövrdə olduğu kimi sosial məsafə tələbinə əməl etməli və özünütəcrid, "Evdə qal!" kampaniyasına davam etməlidirlər. Məhz o zaman gözəgörünməz düşmənlə mübarizədə tam qələbədən danışmaq olar. Hələlik isə tezdir...

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

## Azərbaycan pandemiya ilə mübarizə çərçivəsində effektiv tədbirlər həyata keçirir

### Koronavirusun ölkəmizdə birdəfəlik məhv olması isə vətəndaş məsuliyyətindən asılıdır



**2020-ci il başlayandan dünya koronavirus (COVID-19) adlı bir bəlayla savaşa çıxıb. Amma təəssüf ki, hələ də bu təhlükədən birdəfəlik qurtulmağa nail olmayıb.**

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən pandemiya elan olunan infeksiyaya qarşı ilk günlərdən etibarən Azərbaycanda da ciddi tədbirlər görülməyə başlandı. COVID-19 virusunun ölkə ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə Prezident İlham Əliyevin tapşırığına əsasən, hələ yanvar ayından ölkəmizdə həyata keçirilən zəruri qabaqlayıcı və səmərəli tədbirlər öz effektini göstərdi. Azərbaycanda pandemiyanın təsirinin azaldılması və onun miqyasının məhdudlaşdırılması istiqamətində atılan mühüm addımlar nəticəsində ölkədə COVID-19-la bağlı vəziyyət nəzarət altına alınıb və insanların koronavirusa kütləvi yoluxma hallarının qarşısının alınmasına nail olunub.

Artıq ölkəmizdə tətbiq edilən karantin rejimi də mərhələ-mərhələ yumşaldılır. Amma COVID-19 xəstəliyi uzunmüddətli bir prosesdir. Bu səbəbdən də hazırda mövcud qaydalara riayət olunması və zəruri profilaktik tədbirlərin davam etdirilməsi vacibdir.

### Xaricdən vətəndaşlarımızın geri qaytarılması üçün lazımi tədbirlər görülüb

İndiyə qədər müraciətlər əsasında 15 mindən artıq vətəndaşımız dünyanın müxtəlif ölkələrindən geri qaytarılıb. Bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva deyib: "Bu xüsusda Azərbaycan hökuməti pandemiya ilə mübarizə çərçivəsində ilk günlərdən etibarən mərhələli şəkildə müvafiq tədbirlərin həyata keçirilməsini təmin edib. Bu məqamda mövcud vəziyyətdə xarici dövlətlərdən vətəndaşlarımızın geri qaytarılması üçün bütün lazımi tədbirlər həyata keçirilib. Həmin tədbirlər bu gün də davam etdirilməkdədir. Pandemiya başlayandan etibarən vətəndaşların geri qaytarılması ilə bağlı bütün işlər ölkəmizin diplomatik nümayəndəlikləri, xarici ölkələrdəki səfirliklər və konsulluqlar tərəfindən həyata keçirilib. Biz xaricdəki vətəndaşlarımızdan özləri və ailələri ilə bağlı mövcud vəziyyət haqqında ilk növbədə olduqları yerdəki Azərbaycanın diplomatik nümayəndəlikləri ilə əlaqə yaradıb xəbər vermələrini xahiş etmişik. Bunun nəticəsində də həmin vətəndaşlar haqqında məlumatlar müxtəlif ölkələrdən bura ötürülür və müvafiq addımlar atılırdı".

### Şagirdlərin məktəbdənkənar fəaliyyəti onlayn şəkildə təmin olunub

Təhsil Nazirliyinin birbaşa tabeliyində fəaliyyət göstərən məktəbdənkənar təhsil müəssisələri tərəfindən aprelin 1-dən başlayaraq onlayn formatda təşkil olunan dərslərdə iştirak edən qrup və dərnək üzvlərinin sayı 15 minə yaxın olub.

Nazirlikdən verilən məlumata görə, dərslərə "Təhsil" Respublika İdman Mərkəzinin strukturuna daxil olan 15 Uşaq-Gənclər İdman-Şahmat məktəbi üzrə 23 idman növündə 8 minə yaxın məktəbli, 796 məşqçi-müəllim, İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər Gimnastika Məktəbi, "Vətən" İdman Liseyi, Bakı şəhəri 1 nömrəli İdman Liseyi, Gəncə Şəhər İdman Liseyi üzrə 13 idman növündə 2 minə yaxın məktəbli, 156 məşqçi-müəllim, həmçinin Respublika Uşaq-Gənclər İnkişaf Mərkəzi, Gənclərin Respublika Bədii Yaradıcılıq Evi, 1, 2, 3 nömrəli Uşaq-Gənclər İnkişaf mərkəzlərindən 103 müxtəlif dərnək üzrə 4 mindən artıq şagird və 294 dərnək rəhbəri cəlb edilib.

Ümumilikdə, 15 minə yaxın şagirdin, 1200-dən artıq pedaqoji heyətin iştirak etdiyi məktəbdənkənar fəaliyyət üzrə onlayn dərslərin təşkilində əsas məqsəd dövlət başçısının "Biz birlikdə güclüyük!" şüarına dəstək göstərilməsi, məktəblilərin ev şəraitində asudə vaxtlarının səmərəli keçirilməsinə nail olunması, onların fiziki hazırlığı və yaradıcılıq imkanlarının inkişaf etdirilməsindən ibarətdir.

### Karantin rejimini pozanlar məsuliyyətə cəlb olunurlar

Koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə tətbiq edilən xüsusi karantin rejiminin pozulmasına görə 30.04.2020-ci il saat 00:00-dan 01.05.2020-ci il saat 00:00-dək olan müddət ərzində respublikanın avtomobil yollarında nəqliyyat vasitələri ilə hərəkətdə olan 735 nəfər Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 211-ci maddəsi ilə inzibati məsuliyyətə cəlb edilib.

Baş Dövlət Yol Polisi İdarəsindən bildirilib ki, ümumilikdə 01.04.2020-ci il tarixindən bu günədək respublikanın, o cümlədən paytaxtın avtomobil yollarında xüsusi karantin rejiminin pozulmasına görə 44751 hərəkət iştirakçısı inzibati məsuliyyətə cəlb edilib.

### Dünyanın koronavirus mənzərəsi

Son rəqəmlərə əsasən, dünyada koronavirusdan 1 037 905 nəfər sağalıb, 233 639 nəfər isə ölüb. İndiyədək 3 300 058 nəfərə COVID-19 diaqnozu qoyulub.

Xəstəxanaya yerləşdirilən 50 958 pasiyentin vəziyyəti ağırdır.

Ən çox yoluxma halları ABŞ (1 092 492), İspaniya (239 639) və İtaliyada (205 463) qeydə alınıb.

Azərbaycanla sərhəd ölkə olan Türkiyədə 120 204 nəfər yoluxub, 3 714 nəfər ölüb. İranda isə qeydə alınmış yoluxma hallarının sayı 94 640-dır. Son məlumata görə, bu ölkədə 6 028 nəfər pandemiyanın qurbanı olub.

### Xəstəliyə yoluxma sayı artarsa, məhdudiyyətlər gücləndiriləcək

Karantin rejiminin yumşaldığı şəraitdə belə insanların zəruri sanitar-gigiyenik tədbirlərə əməl etməsi olduqca vacibdir. Qaydalara əməl edilmədiyi təqdirdə əhali arasında virusa yoluxmanın ikinci dalğası başlaya bilər. Bunu Azərbaycanın baş epidemioloqu İbadulla Ağayev deyib. Koronavirusun olduqca təhlükəli olduğunu deyən epidemioloq bildirib ki, karantin rejiminin tətbiqi nəticəsində Azərbaycanda yoluxma hallarının sayı azalıb: "Lakin yoluxma sayının azalması və xüsusi karantin rejiminin yumşaldılması əhalidə təhlükənin sovuşması əhvali-ruhiyyəsi yaratmamalıdır. Müşahidə edirəm ki, insanlarda artıq arxayınlaşma yaranıb. Onlar bilməlidirlər ki, epidemioloji vəziyyət tələb edərsə, karantin rejimi yenidən sərtləşdiriləcək. Bu, əhalinin özündən asılı olan vacib məsələdir. Əgər əhali dövlət qurumlarının müəyyən etdiyi normativlərə əməl etsə, bu virus yox olacaq. Yoluxma sayının çoxalması da əhalinin bu qaydalara riayət etməməsi nəticəsində baş verə bilər. Vətəndaşlar birdəfəlik bilməlidirlər ki, xəstəliyə yoluxma sayı artarsa, məhdudiyyətlər gücləndiriləcək".

Baş epidemioloq əlavə edib ki, məhdudiyyətlərin bir qismi aradan qaldırılsa da, virusa yoluxma ehtimalı hələ çoxdur: "Əhalidən xahiş edirəm ki, vacib işi olmayanlar küçəyə çıxmasınlar. Küçəyə yalnız zəruri tələbatın ödənilməsi üçün çıxmaq lazımdır. İnsanlar kütləvi yerlərdən uzaq dayanmağa çalışmalıdırlar. Əhalinin kütləvi şəkildə toplanması xəstəlik hallarının sayının yenidən artmasına səbəb olar. Epidemioloji durum tam sabitləşənə qədər hər bir kəs öz sosial məsuliyyətini dərk edərək tələb olunan bütün sanitar-gigiyenik normalara əməl etməlidir".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Biz yalnız öz birliyimizlə koronavirus adlı kabusa qalib gələ bilərik

Yaman günün ömrü az olar desələr də, yaşadığımız günlərin ağırlığı və məhrumiyyətlərinin nə vaxt bitəcəyi bəlli deyil. Lakin ağlımıza gəlməyənlərin başımıza gəldiyindən sarsılıb ruhdan düşmək, bədbinliyə qapılmaq və geri çəkilmək mənasızdır.

Buna yol vermək olmaz. Mühit sərtləşəndə insan gücünü səfərbərliyə almalı, inamla yeni hədəflərə can atmalıdır.

Bunun üçün dilimiz, dövlətimizlə bağlı bəzi məqamlara diqqət yetirməliyik. Hər dilin qəribə incəlikləri olduğu kimi, ana dilimizin də başqa dillərdən seçilən heyrətamiz üstünlükləri var. "Dövlət" sözü ingilis dilində "state", ispan dilində "estado", latın dilində "statum", rus dilində "qosudarstvo" adlanır. Mənaları da elə sözlərin məzmununa yaxındır. Amma ana dilimizdə dövlət sözünün bütün dillərdən fərqli ikinci mənası da mövcuddur. O həm də sərvət, bütün nemətlərin məcmusu deməkdir. Ya da yazıçı İlyas Əfəndiyevin dili ilə desək: "Mən dövlət ona deyirəm ki, qızıl zəmiləri dərya kimi dalğa vurub həyatı öz ağuşuna alsın".

Ən vacibi odur ki, dilimizdə dövlət sözü əksər xalqlardan fərqli olaraq daha dərin məna kəsb edir. Bu, dilimizin müdrikliyi ilə yanaşı, həm də xalqın genetik yaddaşından sızıb dövlətə və dövlətçiliyə əsrlər boyu verilən fərqli və üstün bir dəyərdir. Yəni hər birimizin hafizəsində anlayışı güc, qüdrət və sərvətlə bağlıdır.

Biz dünya düzənində ən gənc dövlətlərdən biriyik, yeniliklər və inkişaf, özümüzü təsdiq etmək üçün bol imkanlara malikik. Məşhur rus türkşünası Qumilyov yazır ki, xalqların inkişaf tarixi 1200 illik bir dövrü əhatə edir.

Yəni alimin dediyinə görə, qədim dövlətlərin tənəzzülə uğraması və yenilərinin intibaha səmtlənməsi təbii bir prosesdir. Belə çıxır ki, biz xalq kimi öz inkişafımızda zirvəyə ucalanlardan fərqli üstünlüklərə sahibik.

Azərbaycanın islahatlarda dünyanın bir çox ölkələrini arxada qoyması, koronavirus pandemiyasının fəsadlarına inkişaf etmiş ölkələrdən müqayisəolunmaz dərəcədə az məruz qalması buna sübutdur. Əlbəttə, uğurlarımız dövlət başçısının unikal lider keyfiyyətləri ilə bağlıdır. Azərbaycan Prezidentinin qətiyyətli, cəsarətli addımlarından, kreativ düşüncə tərzindən, maneələri sürətlə aşmaq və islahatlara sadiq qalmaq bacarığından hər birimiz tükənməyən güc mənbəyi kimi bəhrələnirik.

Bu gün Azərbaycanın bütün sahələrdə irəli çıxması, beynəlxalq qurumların çoxsaylı reytinq sorğularının liderinə çevrilməsi, hətta koronavirusla mübarizədə dünya üçün müsbət nümunə kimi təlqin edilməsi hər bir vətəndaşın qürur mənbəyinə çevrilir.

Ölkəmizin qazandığı nailiyyətlərlə öyünmək bizə həm də imkan verir ki, sabaha inam bəsləyək, yeni hədəflərə səmtlənək, daha böyük uğurlara yiyələnmək üçün qarşımızda açılan yollardan faydalanaq. Eyni zamanda təhlükələrdən qorunmaq, günümüzün diktə etdiyi tələbləri dərk etmək və daha ehtiyatlı olmaq hər birimizin borcudur. Koronavirus pandemiyasının təhlükələri sovuşmamışdır. Onları nəzərə almaq, özümüzü, ailəmizi və bütün ölkəni qarşıdakı təhlükələrdən qorumaq hamımızın borcudur. Himayəmizdəki yaşlıları, immun sistemi zəif olanları qayğı ilə əhatə etmək və göz bəbəyi kimi qorumağımız dövlətimizin gördüyü böyük işlərin başa çatdırılması üçün zəruridir. Fikir verdinizmi ki, inkişaf etmiş ölkələrdə ən ağır zərbə qocalara dəyir. Müasir texnologiyaları, misilsiz nailiyyətləri, yüksək həyat səviyyəsi ilə öyünən qabaqcıl ölkələrdə nədənsə müəmmalı şəkildə pandemiya ildırım sürəti ilə yayıldı və ixtiyar yaşlı insanlar qocalar evlərində qırıldılar.

Azərbaycan Prezidentinin vaxtında atdığı addımlar ölkəmizdə bu bəlanın qarşısını almağa imkan verdi. Bu çoxsaylı tədbirləri sadalamadan dövlət başçısının daim diqqət mərkəzində saxladığı bir məqamı xatırlayaq. İlham Əliyev bütün tədbirlərdə milli-mənəvi dəyərlərin qorunmasının vacibliyini qeyd edir. Böyüyün böyük, kiçiyin də öz yerinin olmasını deyir. Müasirləşən və qloballaşan dünyada başqaları buna diqqət yetirirmi?

Biz bunu unutmamışıq, dəyərlərimiz həm dövlət, həm də hər bir fərd tərəfindən göz bəbəyi kimi qorunur. Azərbaycanda hər birimiz bu çətin günlərdə dövlətin çağırışına qoşulduq və həmişə olduğu kimi, valideynlərimizi taleyin ümidinə buraxmadıq. Ailə dəyərlərinə sədaqət, böyüklərə qayğı bizə virusun zərbəsini azaltmağa imkan verdi.

Biz həqiqətən də fərqliyik. Avropada qocalara könüllülər baş çəkir, bizdə hər kəs öz böyüyünün yanında olur. Çünki biz daha diqqətliyik və bunun sayəsində üstümüzə yeriyən koronavirus adlı kabusa sipər çəkə bilirik.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Akademik Ramiz Mehdiyev onlayn müşavirə keçirib

**AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin rəhbərliyi ilə onlayn müşavirə keçirilib. Tədbirdə AMEA Rəyasət Heyətinin üzvləri, Rəyasət Heyəti aparatının idarə və şöbələrinin rəhbərləri iştirak ediblər.**

AMEA-dan AZƏRTAC-a bildirilib ki, müşavirəni giriş sözü ilə açan akademik Ramiz Mehdiyev koronavirusla mübarizədə vaxtında qətiyyətli addımlar atmış Prezident İlham Əliyevə elmi ictimaiyyət adından dərin minnətdarlığını bildirib. Akademik fəaliyyətini karantin rejiminin tələblərinə uyğunlaşdıran AMEA-da pandemiya dövründə bir sıra onlayn elmi tədbirlərin, beynəlxalq videokonfransların keçirildiyini, distant təhsilin uğurla davam etdirildiyini söyləyib. AMEA rəhbəri koronavirusdan qorunma üsulları ilə bağlı Azərbaycan alimlərinin televiziya kanallarında, çap və elektron mediada müsahibə və çıxışlar etməsini, məlumat xarakterli materiallar dərc etdirməsini təqdirəlayiq hal kimi dəyərləndirib.

Akademik Ramiz Mehdiyev Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarlarına, tövsiyə və tapşırıqlarına əməl etməyin vacibliyini diqqətə çatdırıb. Alim bundan sonra da onlayn konfranslara geniş yer verilməsi, elmi tədqiqat işlərinin səmərəliliyinin artırılması və müxtəlif elm sahələrinin bir-birilə inteqrasiyasının genişləndirilməsinin əhəmiyyətindən danışıb, karantin rejimindən sonra AMEA-nın qarşısında duran vəzifələrdən bəhs edib.

Tədbirdə AMEA-nın birinci vitse-prezidentləri, akademiklər İsa Həbibbəyli və İbrahim Quliyev, AMEA-nın vitse-prezidentləri, akademiklər Dilqəm Tağıyev, İradə Hüseynova, Rasim Əliquliyev, AMEA-nın akademik-katibi, müxbir üzv Əminağa Sadıqov və İşlər idarəsinin müdiri, texnika elmləri doktoru, professor Elton Məmmədov hesabat xarakterli onlayn çıxışlarında karantin günlərində keçirilən beynəlxalq videokonfranslar, pandemiya dövründə müxtəlif elmi istiqamətlər üzrə aparılan elmi tədqiqat işləri barədə məlumat verib, görüləcək işlərə dair təkliflərini səsləndiriblər.

Sonra çıxış edən AMEA Rəyasət Heyəti aparatının Xarici əlaqələr idarəsinin rəisi, biologiya üzrə fəlsəfə doktoru Esmira Əlirzayeva, Elm və təhsil idarəsinin rəisi, iqtisad elmləri üzrə fəlsəfə doktoru Fail Kazımov Azərbaycanda elan olunmuş karantin rejimində akademiyanın beynəlxalq əlaqələri və magistrantların distant təhsili barədə danışıblar.

Onlayn müşavirənin sonunda akademik Ramiz Mehdiyev karantin rejimindən sonrakı mərhələdə Azərbaycan alimlərinin qarşısında duran vəzifələrdən söz açıb, postpandemiya dövründə elmin yeni prioritet sahələrinin müəyyənləşdirilməsinə dair təkliflər hazırlanması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

# “Qazax” əlahiddə sərhəd diviziyasında Ali Baş Komandanın tapşırıqlarının icra vəziyyəti yoxlanılıb





Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri, general-polkovnik Məhərrəm Əliyev və Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyev Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının Ermənistanla dövlət sərhədinin mühafizə və müdafiəsini həyata keçirən “Qazax” əlahiddə sərhəd diviziyasının hərbi hissə və bölmələrinə səfər ediblər.

DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, səfər çərçivəsində M.Əliyev və E.Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarının icra vəziyyətini yoxlayıb, sərhədçilərin xidməti və yaşayış şəraitlərini nəzərdən keçirib, sərhəd-döyüş məntəqələrində düşmənlə təmas xəttində xidmət aparan hərbi qulluqçularla görüşüblər. Dövlət sərhədində zəruri sərhəd mühafizə və müdafiə infrastrukturunun formalaşdırılması məqsədilə görülən işlərlə tanış olunub, bu məqsədlə aparılan tikintilərə baxış keçirilib, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşovun iştirakı ilə bu istiqamətdə həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin qısa müddət ərzində reallaşdırılması məsələləri müzakirə olunub.

“Qazax” əlahiddə sərhəd diviziyasının rəhbər heyəti ilə xidməti müşavirə keçirilib, hərbi hissə və bölmələrin döyüş hazırlığının möhkəmləndirilməsi, dövlət sərhədinin toxunulmazlığının və şəxsi heyətin təhlükəsizliyinin təmin edilməsi, sərhədçilərin döyüş ruhunun daha da yüksəldilməsi istiqamətində zəruri tapşırıqlar verilib.

***“Azərbaycan”***

# Mərkəzi Bank uçot dərəcəsini dəyişməyib





**Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyəti uçot dərəcəsinin 7,25 faiz və faiz dəhlizinin aşağı həddinin 6,75 faiz səviyyəsində dəyişməz saxlanılması haqqında qərar qəbul edib.**

**AZƏRTAC xəbər verir ki, Mərkəzi Bankın sədri Elman Rüstəmov mayın 1-də keçirdiyi mətbuat konfransında İdarə Heyətinin qərarını şərh edib.**

**O bildirib ki, faiz dəhlizinin yuxarı həddi isə 9 faizdən 8 faizə endirilib.**

## Qlobal mühit və xarici sektor göstəriciləri

E.Rüstəmov qeyd edib ki, pul siyasətinə həsr olunmuş son iclasdan ötən müddətdə də qlobal tələb və təklifin daralması, beynəlxalq əmtəə və maliyyə bazarlarında yüksək dalğalanmalar koronavirus pandemiyasının neqativ təsirləri ilə bağlı olub. Dünyanın aparıcı iqtisadi güc mərkəzlərində iqtisadi aktivlik kəskin aşağı düşüb, işsizlik əhəmiyyətli artmaqdadır. Nüfuzlu beynəlxalq təşkilatlar 2020-ci ilin qlobal iqtisadi artım proqnozunu azalma istiqamətində əhəmiyyətli təshih edib. Beynəlxalq Valyuta Fondu cari ilə 3 faizlik qlobal ressesiya proqnozlaşdırır.

Qlobal tələbin əhəmiyyətli daralması şəraitində enerji bazarlarında yüksək dalğalanmalar müşahidə olunmaqdadır. Aprel ayında yeni “OPEC++” razılaşması əldə olunsa da neft qiymətlərinin aşağı düşməsi davam edib.

Qlobal maliyyə bazarlarında, o cümlədən başlıca ticarət tərəfdaşı olan ölkələrin valyuta bazarlarında dəyişkənlik davam edib. Beynəlxalq təşkilatlar və ayrı-ayrı ölkələr pandemiya dövründə iqtisadi aktivliyi dəstəkləmək məqsədilə irihəcmli dəstək proqramlarını həyata keçirməyə başlayıb.

## İnflyasiyanın dinamikası və inflyasiya gözləntiləri

O deyib ki, İdarə Heyətinin pul siyasətinə həsr olunmuş son iclasından keçən dövrdə illik inflyasiya gözlənildiyi kimi bir qədər yüksəlsə də, hədəf diapazonunun mərkəzindən aşağıda qalıb. Rəsmi statistikaya görə, martda illik inflyasiya 3,3 faiz təşkil edib. Son 12 ayda inflyasiya ərzaq məhsulları üzrə 6 faiz, qeyri-ərzaq məhsulları üzrə 1,2 faiz və xidmətlər üzrə 1,2 faiz olub. Ərzaq inflyasiyasının yüksəlməsi əsasən karantin rejiminin sərtləşməsi şəraitində ərzağa tələbin qısamüddətli yüksəlməsi, eləcə də istehsal və daşınma xərclərinin lokal artımı ilə izah edilir.

Real sektor müəssisələri üzrə monitorinqə görə, inflyasiya gözləntiləri martda əvvəlki aya nəzərən tikintidə dəyişməz qalıb, ticarətdə azalıb, qeyri-neft sənayesi və xidmətdə artıb. Ev təsərrüfatlarının inflyasiya gözləntilərinin bir qədər artması müvəqqəti xarakter daşıyır.

Mövcud makroiqtisadi siyasət çərçivəsi saxlanmaqla son proqnozlar 2020-ci ildə inflyasiyanın hədəf intervalında (4±2 faiz) qalacağını göstərir.

## Monetar şərait

Mərkəzi Bankın sədri bildirib ki, ötən toplantıdan keçən müddətdə monetar şərait dövlət büdcəsində profisit və valyuta bazarında vəziyyətin stabilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən təsirlənib. Pul bazasının dinamikası valyuta bazarında stabilliyi dəstəkləyən faktordur. Aprel ayı üzrə dinamika göstərir ki, valyuta bazarında vəziyyət normallaşıb.

İqtisadiyyatın likvidlik ehtiyaclarının ödənilməsi və valyuta bazarının stabilliyinin təmin olunması üçün Mərkəzi Bank situasiyadan asılı olaraq pul siyasəti alətlərini adekvat tətbiq edir. Pul bazarındakı son meyilləri nəzərə almaqla sterilizasiya alətlərinin müddəti və faizlərinin formalaşması çərçivəsində zəruri dəyişikliklər olunub.

Pul bazarının seqmentlərində faiz dərəcələri müxtəlif istiqamətdə dəyişir. Banklararası pul bazarında faiz dərəcələri artmağa meyillidir. Banklararası REPO bazarında orta faiz martdakı 4,5 faizdən aprel ayında 8 faizə yüksəlib. Yeni əmanət və depozitlər, habelə manatla yeni kreditlər üzrə son ayda faiz dərəcələrində əhəmiyyətli dəyişiklik olmayıb.

Aşağı inflyasiya şəraitində iqtisadi subyektlər üçün manat aktivlərinin cəlbediciliyi qorunmaqdadır. Birinci rübün son ayında depozitlərin dollarlaşması bir qədər artsa da, apreldə əks proseslər müşahidə edilib. “Əmanətlərin tam sığortalanması haqqında” qanunun vaxtının uzadılması bankların depozit bazasının qorunması ilə yanaşı de-dollarizasiya proseslərinə də dəstək verəcək.

Kredit portfelinin başlıca artım mənbəyi biznes kreditləridir. İstehlak kreditləri isə azalma meyilinə malikdir və istehlak kreditlərinin kredit portfelində payı azalmaqdadır.

Pandemiyadan zərərçəkən əhali və biznesin dəstəklənməsi istiqamətində Mərkəzi Bank tərəfindən həyata keçirilən tədbirlər maliyyə sabitliyinin qorunması çərçivəsində kreditləşmə şərtlərinin yumşalmasına imkan verir.

## İqtisadi aktivlik

E.Rüstəmov əlavə edib ki, dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da koronavirus pandemiyasının iqtisadi aktivliyə neqativ təsirləri müşahidə edilməkdədir. Mərkəzi Bank tərəfindən real sektor müəssisələrinin monitorinqi göstərir ki, qeyri-neft sənayesi, tikinti, ticarət və xidmət sahələrindəki müəssisələrdə iqtisadi aktivlik göstəricilərinin yanvar-fevral aylarındakı müsbət dinamikası mart ayından başlayaraq azalma ilə əvəzlənib, ticarətdə aktivliyin daha kəskin enişi qeydə alınıb.

Koronavirusun təsirləri nəticəsində 2020-ci ilin ilk 2 ayında iqtisadi artım 2,8 faiz olduğu halda, birinci rübdə 1,1 faizə enib. O cümlədən qeyri-neft sektorunda iqtisadi artım ilk 2 ayda 6,7 faiz, birinci rübün yekunu üzrə isə 3,5 faiz təşkil edib.

Hökumət tərəfindən reallaşdırılmaqda olan ÜDM-in 4 faizini üstələyən iqtisadi dəstək paketi və sinxronlaşdırılmış makroprudensial tədbirlər tələbin daralmasının səngiməsinə və məşğulluğun - iş yerlərinin qorunmasına imkan verməlidir.

## İnflyasiya riskləri

O deyib ki, inflyasiyanın risklər balansının dəyişim perspektivləri ilə bağlı qeyri-müəyyənliklər yüksək olaraq qalır. Qlobal iqtisadi aktivlik və dünya neft bazarındakı konyunktur ölkəmizə əsasən ixrac gəlirləri və gözləntilər kimi kanallarla təsir edir. Digər tərəfdən qlobal miqyasda tətbiq olunan sosial təcrid tədbirlərinin mal və xidmət idxalını məhdudlaşdırması tədiyə balansını tarazlaşdıran amildir. Ölkənin yeni reallıqlara uyğun çevik makroiqtisadi manevr imkanlarının mövcudluğu, kifayətlik normalarını əhəmiyyətli üstələyən valyuta ehtiyatları və reallaşmaqda olan iqtisadiyyata yardım paketi pandemiyanın neqativ təsirlərini azaltmağa kömək edir. Makroiqtisadi risklərin azalması karantin rejiminin yumşalmasından sonra qlobal iqtisadiyyatın bərpası və dünya bazarında neftin qiymətinin məqbul səviyyədə stabilləşməsindən asılı olacaq.

İlin qalan dövründə xarici və daxili mühitdə gözlənilən proseslər faiz dəhlizinin parametrlərinə dair növbəti qərarların qəbulu zamanı iqtisadi aktivlik və məşğulluğun dəstəklənməsi hədəfi ilə makroiqtisadi sabitliyin və onun əsas lövbəri olan məzənnə sabitliyinin təmin olunması arasında optimal balansın qorunmasını tələb edir. Bu məqsədlə xarici mühitdə və daxili maliyyə bazarlarında gedən proseslər və inflyasiya hədəfinə nail olma vəziyyəti davamlı monitorinq olunacaq.

Bu qərar 2020-ci il mayın 1-dən qüvvəyə minir. Mərkəzi Bankın İdarə Heyətinin faiz dəhlizinin parametrləri barədə növbəti qərarı bu il iyun ayının 19-da ictimaiyyətə açıqlanacaq.

# Dövlət Təhlükəsizliyi Xidməti Biləsuvarda keçirdiyi əməliyyat-istintaq tədbirləri barədə məlumat yayıb

Azərbaycan Respublikası ərazisində xüsusi karantin rejiminin tətbiq edildiyi, dövlət strukturlarının fəaliyyətinin əhalinin sağlamlığının qorunması istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən şəxsi maraqları naminə istifadə edərək vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan hüquqazidd əməllərə yol verməlırinə dair məlumatlar əsasında araşdırma tədbirləri həyata keçirilməkdədir.

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, toplanmış materiallar üzrə Biləsuvar Rayon İcra Hakimiyyətinin başçısı Mahir Quliyevin birinci müavini Xanlar Məmmədov vasitəsilə xüsusi karantin rejiminin tətbiqi ilə əlaqədar maddi yardıma ehtiyacı olan şəxslərə sosial yardım üçün ayrılan vəsaitin bir qismini hissə-hissə mənimsəməsi, habelə icra hakimiyyətinin sərəncamında olan digər vəsaitlərdən sosial yardım adı altında ayıraraq hissəsinin ona verilməsini tapşırmasına dair əsaslı şübhələr müəyyən olunub.

Bundan başqa, Mahir Quliyevin köməkçisi Pöhran Şahbazov və tabeçiliyində olan başqa vəzifəli şəxslər vasitəsilə yerli icra hakimiyyəti və digər dövlət orqanlarının vəzifəli şəxslərindən, eləcə də rayon ərazisində fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olan vətəndaşlardan müxtəlif adlar altında özünün pul vəsaitləri tələb edərək almasına dair əsaslı şübhələr müəyyən edilib.

Həmçinin dövlət qayğısı ilə əhatə olunmuş işsiz və aztəminatlı vətəndaşların ictimai işlərə cəlb edilərək aylıq qazanc əldə edə bilmələri üçün əməkhaqqı kartlarına köçürülən məbləğlərin Mahir Quliyev tərəfindən ələ keçirilməsinə dair məlumatlar əldə edilib.

Eyni zamanda, Mahir Quliyev tərəfindən təmir-tikinti, abadlıq işlərinə ayrılan dövlət vəsaitlərinin müəyyən hissəsinin nağdlaşdırılaraq mənimsənildiyinə, vətəndaşlardan müxtəlif təyinatlı tikintilərin aparılması üçün zəruri olan sənədləşmə işləri və digər əsaslarla ümumilikdə təkrarən rüşvət tələb edilərək alınmasına əsaslı şübhələr müəyyən edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin 2020-ci il aprelin 29-da həyata keçirdiyi əməliyyat-istintaq tədbirləri nəticəsində Mahir Quliyevin xidməti otağında növbəti dəfə rüşvət almasından sonra məhkəmənin qərarı əsasında keçirilmiş baxış zamanı həmin pul vəsaitləri, aparılan araşdırmalarla bağlı iş üzrə əhəmiyyət kəsb edən müxtəlif sənədlər və digər maddi sübutlar aşkar edilərək götürülüb.

Dövlət Təhlükəsizliyi Xidmətində aparılan cinayət işi üzrə Mahir Quliyev vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, təkrar rüşvət alma, mənimsəmə faktlarına görə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə məsuliyyətə cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda araşdırmalar davam etdirilir.

# Dörd rayonun icra hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin vəzifəli şəxsləri barəsində cinayət işi başlanıb

Koronavirus infeksiyasının respublika ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığı ilə yaradılmış Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən elan edilən xüsusi karantin rejimi qaydalarının müxtəlif yollarla pozulması, həmin dövrdə işləməyən şəxslərə və aztəminatlı ailələrə ayrılmış ərzaq yardımlarının paylanmasında yol verilmiş mənfi hallara qarşı prokurorluq orqanları tərəfindən qanunamüvafiq tədbirlər davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Masallı, Quba, Cəlilabad və Zərdab Rayon İcra Hakimiyyəti başçılarının inzibati ərazi nümayəndəliklərinin bəzi vəzifəli şəxslərinin bu qəbildən olan qanunazidd hallara yol vermələri barədə yerli icra hakimiyyətlərindən rayon prokurorluqlarına daxil olmuş müraciətlərə baxılıb.

Araşdırmalarla Masallı Rayon İcra Hakimiyyəti başçısının Ərkivan qəsəbə inzibatı ərazi dairəsi üzrə nümayəndəsi İsrail Tağıyevin vəzifə saxtakarlığı edərək aprelin 1-dən 29-dək olan müddətdə xüsusi karantin rejimi qaydalarını pozaraq sərbəst hərəkət etmək istəyən 74 nəfərə qanunsuz olaraq arayışlar verməsinə şübhələr üçün əsaslar müəyyən olunub.

Eləcə də Quba Rayon İcra Hakimiyyəti başçısının Vladimirovka kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi İslam Abayevin də vəzifə saxtakarlığı edərək ayrı-ayrı şəxslərə Qusar rayonuna getmələrinə dair qanunsuz arayışlar verməsinə şübhələr müəyyən edilib.

Bundan başqa, Cəlilabad Rayon İcra Hakimiyyəti başçısının Şiləvəngə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Bağır Şirəliyevin vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də imkansız ailələrə göndərilmiş ərzaq yardımının paylanması zamanı mənfi hallara yol verərək ərzaq paylarını özünün və müavini Rəşad Seyfullayevin yaxın qohumlarına, o cümlədən kəndin imkanlı şəxslərinə paylamasına dair əsaslı şübhələr müəyyən olunub.

Zərdab Rayon İcra Hakimiyyəti başçısının Məmmədqasımlı kənd inzibatı ərazi dairəsi üzrə nümayəndəsinin müavini Mətaf Mikayılov tərəfindən də qanun pozuntusuna yol verilib. Belə ki, M.Mikayılovun vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə Heydər Əliyev Fondu tərəfindən aprelin 23-də göndərilmiş ərzaq yardımını imkansız ailələrə deyil, yaxın qohumları və kəndin imkanlı şəxslərinə paylamasına əsaslı şübhələr müəyyən edilib.

Qeyd olunan şəxslər müvafiq rayon icra hakimiyyəti başçılarının əmrləri ilə tutduqları vəzifədən azad ediliblər.

Toplanmış materiallar üzrə Masallı, Quba, Cəlilabad və Zərdab rayon prokurorluqlarında Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə cinayət işləri başlanıb.

Hazırda həmin işlər üzrə təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilərək məsuliyyətə cəlb edilmələri istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bu qəbildən olan qanunazidd hallarla üzləşən vətəndaşlara müraciət edərək “961” nömrəli Çağrı Mərkəzinə məlumat vermələrini xahiş edir.

# Ermənistanın dövlət borcu 7 milyard dolları ötüb

## İşğalçı ölkənin xaricdən iqtisadi asılılığı daha da artır

Ermənistanda sürətlənən sosial-iqtisadi çöküş Nikol Paşinyan iqtidarının reytinqinə də ciddi zərbə vurur. Ermənistan parlamentinin keçmiş deputatı Ağvan Vardanyan bunu təbii sayır. Bu xüsusda o bildirir:

“Bu hakimiyyət uğursuzluğa uğrayıb, perspektivə sahib deyil və siyasi qüvvələrimiz, aktiv ictimai dairələrimiz Ermənistanı bərpa etmək, doğru yola gətirmək imkanının hər ay, hər gün daha da çətinləşdiyini nə qədər başa düşsə, proseslər o qədər daha sürətlənəcək. Dövlətin üzləşdiyi çətinliklər hakimiyyətin bacarıqsızlığının nəticəsidir”.

Vardanyanın sözlərinə görə, Paşinyan uğursuzluqlarının məsuliyyətini dərk etməyəcək, müxtəlif siyasi qüvvələrin bu barədə ciddi şəkildə düşünmələri və onu uzaqlaşmağa məcbur etmələri qalır: “Bütün sahələrdə geriləməmiz var, eqoist və idarə etməyi bacarmayan hakimiyyətə sahibik”.

Bu durumda o da məlum olur ki, Ermənistanın xaricdən iqtisadi asılılığı da artacaq. Çünki Ermənistan hakimiyyəti koronavirusla əlaqədar dövlət büdcəsində müəyyən dəyişikliklər etmək qərarına gəlib. Ermənistan parlamentinin növbədənkənar iclasında çıxışı zamanı maliyyə naziri Atom Cancuqazyan Ermənistanda iqtisadi tənəzzülün 2 faiz olacağını deyib. O, Rusiyadan və digər ölkələrdən Ermənistana transların kəsiləcəyini, turizm və xidmət sferasının güclü zərər görəcəyini, ixracatın və investisiyaların azalacağını bildirib. Nazir büdcənin itkilərinin 324 milyard dram və ya 672 milyon dollar təşkil edəcəyini söyləyib. Onun sözlərinə görə, dövlət borcu daha 150 milyard dram və ya 313 milyon dollar artırılacaq.

Erməni iqtisadçı-ekspert Tadevos Avetisyan bununla bağlı bildirir ki, vəziyyət sürətlə pisləşir: “Ermənistanın dövlət borcu böyüyür və hələ daha da böyüyə bilər, hər şey koronavirus pandemiyasının nə qədər davam edəcəyindən asılıdır. 2020-ci il üçün planlaşdırılmış Ermənistanın dövlət büdcəsi təhlükə altındadır, vergilər azalıb, xərclər isə artıb. Bu vəziyyətdə Ermənistan hökuməti dövlət büdcəsində bəzi dəyişikliklər etmək təklifi ilə çıxış edib. Bundan sonra nə olacağı sualının cavabı koronavirusun nə zaman bitəcəyi sualının naməlum cavabından asılıdır. Əgər vəziyyət bu cür ssenari ilə davam etsə və koronavirusla əlaqədar iqtisadi məhdudiyyətlər ən azı üçüncü rübə qədər davam etsə, onda biz planlaşdırılmış 260 milyard dram həddini keçəcəyik”.

Araşdırmalar göstərir ki, Paşinyan hakimiyyətinin ilk ilində Ermənistanın dövlət borcu 401,7 milyon dollar, daha sonra isə 500 milyon dollara yaxın artaraq 7 milyard 343.4 milyon dollara çatıb. “Qolos Armenii” saytı xatırladır ki, hələ Karen Karapetyanın baş nazir olduğu dövrlərdə qəbul edilən yeni dövlət büdcə idarəetmə siyasətinə görə, dövlət əməkhaqqı və pensiyaları müstəqil olaraq qazanmalı idi: “Kreditlər isə yalnız ölkədəki infrastrukturun inkişafı layihələri üzrə götürülə bilərdi. Buna baxmayaraq Paşinyan və onun komandası ötən il təxminən 150 milyon dollarlıq büdcə kreditlərinə əl atmaqla ölkədə maaş, pensiya və müavinətləri cüzi artırıb. Əslində, Paşinyanın bunu bilib-bilməməsindən asılı olmayaraq reallıq budur ki, əhalinin müəyyən kateqoriyasının gəlirinin qəpik-quruş artması Ermənistanın borc yükünün əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarıb.

Beləliklə, Ermənistanın 2018-ci ilin sonunda 6 milyard 922.5 milyon dollarlıq dövlət borcu artaraq 2019-cu ildə 7 milyard 324.3 milyon dollar təşkil etdi. Borcun təxminən 490 milyon dolları Ermənistan Mərkəzi Bankının, qalan hissəsi isə hökumətin borcudur. Göründüyü kimi, Paşinyan hakimiyyətinin elə ilk ilində Ermənistanın dövlət borcu 401,7 milyon dollar artıb. Bu il isə borc daha kəskin artacaq”.

Gələcək nəsillər üçün qoyduğu borc yükünün tənqidçilərinə qarşı Paşinyanın - baş nazirin heç bir reaksiya verməməsi də qəribə hal kimi dəyərləndirilir. Bu gün Ermənistanın dövlət borcunun böyük hissəsinin xarici valyutada ifadə olunduğunu bildirən yerli media mümkün valyuta sarsıntısı olacağı halda hökumətin dövlət borcunun ÜDM-ə nisbətini ləğv edə biləcəyini də gizlətmir: “Bu il, Mərkəzi Bankın borcu istisna olmaqla, dövlət borcunun ödənilməsi və ona xidmət göstərilməsi üçün təxminən 942 milyon ABŞ dolları tələb olunur. Bəli, hələlik tələb olunur”.

Bu vəziyyətdə ölkənin maliyyə asılılığının daha da artması qaçılmaz sayılır.

***Elçin CƏFƏROV, “Azərbaycan”***

# "Azercell"dən minlərlə aztəminatlı ailəyə Ramazan ayında dəstək

## Şirkət Ramazan ayı boyu bölgə sakinlərinə ərzaq yardımı paylayacaq

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aztəminatlı və digər həssas kateqoriyalardan olan ailələri sevindirməkdə davam edir.**

Şirkət tərəfindən korporativ sosial məsuliyyət strategiyası çərçivəsində həyata keçirilən xeyirxah təşəbbüslərin davamı olaraq müqəddəs Ramazan ayının hər həftəsi Azərbaycanın bölgələrində karantin dövründə sosial təcrid şəraitində yaşayan 1000 aztəminatlı ailəyə ərzaq məhsullarından ibarət sovqatlar paylanılacaq.

Ümumilikdə Ramazan ayı ərzində 4000-dən çox aztəminatlı ailəyə ərzaq dəstəyinin göstərilməsi nəzərdə tutulub. Bu həftə ərzaq yardımı Cəlilabad, Hacıqabul, Füzuli, Gədəbəydə yaşayan ehtiyacı olan ailələrə ediləcək.

Ərzaq payı alacaq ailələrin siyahısı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən təqdim ediləcək. Payları ölkə boyu müxtəlif ünvanlara Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti çatdıracaq.

"Azercell" şirkətinin təşkil etdiyi yardım aksiyalarının əsas məqsədi COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə həssas təbəqədən olan insanların sosial rifahını yaxşılaşdırmaq, dövlət tərəfindən məlum infeksiyanın yayılmasının qarşısının alınması istiqamətində keçirilən tədbirlərə dəstək vermək, həmçinin cəmiyyətdə vüsət alan sosial yardımlaşma təşəbbüslərinin genişlənməsinə nail olmaqdır.

Xatırladaq ki, Novruz bayramı münasibətilə və koronavirus (COVID-19) infeksiyası ilə mübarizə çərçivəsində "Azercell Telekom" MMC həssas qrup kateqoriyadan olan insanlara qayğı və dəstək məqsədilə "Regional İnkişaf" İctimai Birliyi (RİİB) ilə birlikdə Bakı şəhərində I qrup əlilliyə görə sosial müavinət alan ailə üzvü olan 6000-ə yaxın aztəminatlı ailəyə bayram sovqatı çatdırmışdı.

## "Atabank" Açıq Səhmdar Cəmiyyətinin və "Amrahbank" Açıq Səhmdar Cəmiyyətinin bank lisenziyalarının ləğv edilməsi barədə rəsmi məlumat

Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 28.04.2020-ci il tarixli qərarları ilə "Atabank" Açıq Səhmdar Cəmiyyətinin və "Amrahbank" Açıq Səhmdar Cəmiyyətinin bank fəaliyyətinin həyata keçirilməsi üçün lisenziyaları ləğv edilmişdir.

Həmin banklar barəsində iflas prosedurunun başlanması ilə əlaqədar Mərkəzi Bank tərəfindən məhkəməyə müraciət edilmiş, məhkəmənin 30.04.2020-ci il tarixli qərarlarına əsasən bu banklar müflis elan edilmiş və Əmanətlərin Sığortalanması Fondu ləğvedici təyin edilmişdir.

Əhalinin bu banklarda qorunan əmanətlərinin ödənilməsi vaxtı və yeri barədə Əmanətlərin Sığortalanması Fondu tərəfindən məlumat veriləcəkdir.

*Mərkəzi Bankın İdarə Heyəti*

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 06.03.2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş yeddi LOT-dan ibarət tenderlə əlaqədar Tender komissiyasının 17 aprel 2020-ci il tarixli qərarına əsasən Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisinin su və isitmə sistemi üzrə zəruri iş və mal-materialların satın alınması (LOT 3) üzrə "Yanğından Qorunma Sistemləri" MMC, Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması (LOT 6) üzrə isə "İnter Kontinental" firması qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

**Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 03 aprel 2020-ci il tarixdə 2020-ci ildə təhsil müəssisələri üçün poliqrafiya məhsullarının istehsalı məqsədilə www.etender.gov.az saytında keçirilmiş açıq tenderlərinTender komissiyasının qərarına əsasən nəticələri:**

- 2020-2021-ci tədris ilinə məktəbəhazırlıq proqramı üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Çaşıoğlu Elm-İstehsalat" MMC olmuş və 29 aprel 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- 2020-2021-ci tədris ilinə ümumi təhsilin texniki fənləri üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Çaşıoğlu Elm-İstehsalat" MMC olmuş və 29 aprel 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- 2020-2021-ci tədris ilinə ümumi təhsilin ictimai fənləri üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Təhsil" Nəşriyyat-Poliqrafiya MMC olmuş və 30 aprel 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.
- 2020-2021-ci tədris ilinə peşə ixtisasları üzrə dərsliklərin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair tenderin qalibi "Aspoliqraf LTD" MMC olmuş və 30 aprel 2020-ci il tarixdə həmin müəssisə ilə satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*

# Aprel ayında 2,3 milyon şəxsə sosial təminat növləri üzrə ödənişlər edilib

## Ötən ilin müvafiq dövrünə nisbətən bu istiqamətlər üzrə 27 faiz çox vəsait ödənilib




Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu tərəfindən aprel ayı üzrə ümumilikdə 2,3 milyon nəfərə sosial təminat növləri üzrə ödənişlər edilib.

Onlardan 1 milyon 270 min nəfərinə pensiya, 418 min nəfərinə müavinət, 298 min nəfərinə təqaüd ödənilib. Həmçinin 82 min 300 ailə üzrə 342 min ailə üzvünə aprel ayı üzrə ünvanlı sosial yardım ödənişi həyata keçirilib. Qeyd edilən istiqamətlər üzrə aprel ayında sosial ödəniş alanların sayı ötən ilin aprel ayı ilə müqayisədə 7 faiz və ya 154 min nəfər çox olub.

Həmçinin aprel ayında həmin sosial ödənişlərin maliyyələşdirilməsinə ümumilikdə 480 milyon manatdan artıq vəsait xərclənib ki, bu da ötən ilin müvafiq göstəricisinə nisbətən 27 faiz və ya 103 milyon manat çoxdur.

# Din xadimləri Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə ediblər

Azərbaycanda koronavirusla (COVID-19) mübarizə istiqamətində həyata keçirilən tədbirlərə töhfə vermək məqsədilə ölkədə rəsmi təyinatla fəaliyyət göstərən din xadimləri aldıqları aylıq maddi yardımın bir qismini Koronavirusla Mübarizəyə Dəstək Fonduna köçürməklə bağlı təşəbbüslə çıxış edərək, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində olan Mənəvi Dəyərlərin Təbliği Fonduna çoxsaylı müraciətlər ünvanlayıblar.

Fondun Himayəçilər Şurası tərəfindən məqsədəuyğun hesab edilərək dəstəklənən bu müraciətlər nəticəsində Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsünə qoşulan din xadimləri könüllü şəkildə fondun vasitəsilə ümumilikdə 39 984 (otuz doqquz min doqquz yüz səksən dörd) manat məbləğində vəsaiti Koronavirusla Mübarizəyə Dəstək Fonduna ianə ediblər.

**Yasəmən MUSAYEVA,**
**"Azərbaycan"**

MƏNƏVİ DƏYƏRLƏRİN TƏBLİĞİ FONDU

# Ağdərə-Sumqayıt magistral qaz xətti ölkə sənayesinin inkişafına mühüm töhfə verəcək

Əvvəli 1-ci səh.

Bu xətt Sumqayıtın sənaye müəssisələrini və Karbamid zavodunu qazla təchiz edirdi. Artan tələbat isə şəhərin mavi yanacaqla təmin olunmasında müəyyən problemlər yaradırdı.

Bunlar nəzərə alınaraq Prezident İlham Əliyevin göstərişinə əsasən 60 kilometrlik yeni Ağdərə-Sumqayıt xətti çəkilişinə 80 milyon manat vəsait ayrıldı. Bu xətt Sumqayıt-Abşeron klasterinin dayanıqlı, yüksəktəzyiqli qazla təminatı və Sumqayıt sənayesinin daha sürətlə inkişafı üçün böyük imkanlar yaradacaq. Xətt çəkilərkən perspektivdə Yaşma Elektrik Stansiyası və metallurgiya kompleksi üçün də ayrılmalar qoyulub. Bu da inkişaf perspektivini təmin edən vasitələrdəndir. Xəttin çəkilişi vaxtından əvvəl başa çatdırılıb, bununla da Sumqayıt dairəvi qazla təmin olunub.

Həyata keçirilən tədbirlər Sumqayıt şəhərinin inkişafına kompleks şəkildə yanaşıldığını və sənaye potensialının getdikcə artacağını bir daha təsdiqləyir. O cümlədən ikinci qaz xəttinin istifadəyə verilməsi həm bu günün tələbatını ödəyəcək, həm də bundan sonra yaradılacaq müəssisələrin potensialına xidmət edəcək.

Xəttin açılış mərasimində iştirak edən Prezident İlham Əliyev demişdir: "Bu, şəhəri dayanıqlı qazla təmin etmək üçün imkanlar yaradır və eyni zamanda, şəhərin gələcək potensialını da nəzərə alır. Bu vaxta qədər Sumqayıt bir xətt üzərində qazla təmin edilirdi. Əlbəttə ki, Sumqayıtda son illərdə yaradılmış sənaye müəssisələri, sənaye klasterləri əlavə həcm tələb edirdi. Bunu nəzərə alaraq yeni qaz kəmərinin tikintisi zəruri idi... Bu, birinci növbədə, əhalini təbii qazla təmin etmək işində önəmli addımdır. Sumqayıtda qazlaşdırmanın səviyyəsi 100 faizdir. Əlbəttə ki, şəhərin bir xəttin üzərində qidalanması müəyyən problemlər yarada bilərdi, qəza nəticəsində müəyyən problemlər yarana bilərdi. İndi isə bu ikinci xətt həm artan tələbatı ödəyəcək, eyni zamanda ikinci sığorta layihə kimi sumqayıtlıları təmin edəcəkdir".

Təbii qaz həm də enerji sisteminin əsas mənbəyidir. Çünki elektrik stansiyalarının mütləq əksəriyyəti qazla işləyir. Odur ki, xətt çəkilərkən perspektivdə Yaşma Elektrik Stansiyasına ayrılmaların qoyulması da təsadüfi deyil. Xatırladaq ki, Sumqayıtda həmçinin 525 meqavat gücündə elektrik stansiyası fəaliyyət göstərir. Bu stansiya olmadan şəhər sənayesinin fəaliyyətini təsəvvür etmək mümkün deyil. Regionların inkişafına yönəldilən birinci dövlət proqramı çərçivəsində inşa edilən bu nəhəng stansiyanın istifadəyə verilməsi ilə Sumqayıtın elektrik enerjisinə olan tələbatı və eyni zamanda getdikcə artan sənaye müəssisələrinin tələbatı ödənildi.

Beləliklə, Ağdərə-Sumqayıt layihəsi nəticəsində təbii qaz Yaşma və Sumqayıt elektrik stansiyalarına, həmçinin SOCAR-ın Karbamid zavoduna və yeni metallurgiya kompleksinə nəql ediləcək. Bu kəmərin istifadəyə verilməsi yalnız Sumqayıt-Yaşma iqtisadi regionu üçün deyil, həm də iki lokal nəql sistemini birləşdirməklə Bakı şəhərinin etibarlı qaz təchizatı üçün alternativ bir sistemə çevrilməsinə imkan verir.

Yeri gəlmişkən, alternativ mənbələrdən istifadə etmək, su elektrik stansiyalarının da həcmini artırmaq qarşıya məqsəd qoyulur. Bununla belə hələ uzun illər bundan sonra əsas enerji mənbəyimiz təbii qaz olacaq. Ölkəmizdə reallaşan nəhəng qaz layihələri bu məqsədə yönəldilib. İki il əvvəl "Şahdəniz-2" layihəsinin işə düşməsi və gələn il "Abşeron" yatağından əldə olunacaq böyük həcmdə hasilat ölkəmizin qaza olan tələbatını bundan sonra da təmin edəcək.

**Flora SADIQLI,**
**"Azərbaycan"**

# Beynəlxalq aləm

## Portuqaliya məhdudlaşdırıcı tədbirləri yumşaldır



Koronavirusun yayılması üzündən Portuqaliyada tətbiq olunmuş məhdudlaşdırıcı tədbirlər tədricən yumşaldılacaq. Bu barədə Baş Nazir Antoniu Koşta məlumat vermişdir.

Hökumətin başçısı qeyd etmişdir ki, "fövqəladə vəziyyət sona çatır, amma virus əvvəlki kimi qalır". O əlavə etmişdir ki, hökumətin məhdudiyyətlərin yumşaldılmasına dair planı bir neçə mərhələni ehtiva edir, vəziyyət 15 gündən bir qiymətləndiriləcək. Koşta izah etmişdir ki, "lazım gəlsə, geriyə addım atmaqdan utanmaram".

Plana uyğun olaraq, iqtisadiyyatın sektorları mərhələ-mərhələ açılacaq. Mayın 4-də kiçik mağazaların, bərbərxanaların, kitab dükanlarının işini bərpa edəcəyi gözlənilir. Koşta ictimai nəqliyyatda və pərakəndə satış yerlərində qoruyucu maskalardan istifadənin zəruriliyini vurğulamışdır.

## "Teodor Ruzvelt"də koronavirusa yoluxanların sayı 1155-ə çatdı



ABŞ-ın "Teodor Ruzvelt" təyyarədaşıyan gəmisində yeni tip koronavirusa yoluxanların sayı 1155-ə çatmışdır.

Bu barədə "Anadolu" agentliyi xəbər verir. Məlumata görə, təyyarədaşıyan gəmidə 43 hərbi qulluqçu koronavirusdan sağalmışdır, 3-ü Quam adasında xəstəxanada müalicə olunur.

Eyni zamanda "Kidd" hərbi gəmisində koronavirusa yoluxanların sayı 78-ə çatmışdır.

ABŞ Hərbi Dəniz Qüvvələrinin komandanlığı bildirmişdir ki, donanmada infeksiya vəziyyəti barədə ictimaiyyətə bundan sonra məlumat verməyəcək. Ekspertlərin fikrincə, komandanlığı belə bir qərar qəbul etməyə ABŞ ordusunda koronavirusa yoluxanların sayının artması ətrafında aktiv mübahisələr sövq etmişdir.

## *BMT:* Həftər dinc liviyalıların ölümünə görə məsuliyyət daşıyır



Qiyamçı general Xəlifə Həftərin nəzarət etdiyi qanunsuz silahlı birləşmələrin hərəkətləri nəticəsində cari ilin ilk üç ayında Liviyada 64 dinc sakin həlak olmuş, 67 nəfər yaralanmışdır. Bu barədə BMT-nin Liviya üzrə Xüsusi Nümayəndəsinin İdarəsi məlumat vermişdir.

Liviyada mülki şəxslər arasında ölənlərin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 45 faiz artmışdır. Məlumata görə, Həftərin tərəfdarları yaşayış məntəqələrini minaatan və raketlə vururlar. BMT münaqişə tərəflərini hərbi əməliyyatları dərhal dayandırmağa və yeni tip koronavirusun yayılmasının qarşısını almaq üçün səy göstərməyə çağırmışdır.

Bu arada Liviyanın mərkəzində, paytaxt Trablisdən 750 kilometr cənubda yerləşən Səbha şəhərinin sakinləri və mülki fəallar videomüraciət yayaraq ölkənin legitim hökumətini dəstəkləmiş, Xəlifə Həftərin qanunsuz silahlı birləşmələrinin hərəkətlərini qınamışlar. Müraciətdə həmçinin qiyamçılara və muzdlulara əl altdan dəstək verən BƏƏ, Səudiyyə Ərəbistanı, Misir, Rusiya və Fransanın mövqeyi pislənmişdir.

## Rusiyanın Baş Naziri koronavirusa yoluxdu



Rusiyanın Baş Naziri Mixail Mişustin koronavirusa yoluxmuşdur. Bu barədə Prezident Vladimir Putinlə videokonfrans formatında görüş zamanı Mişustinin özü məlumat vermişdir.

Baş Nazir bildirmişdir ki, xəstələnməsi ilə əlaqədar özünü təcrid edəcək. Hökumət fəal işləyəcək, Mişustinin özü də Nazirlər Kabineti ilə əlaqədə olacaq.

Mişustin Prezidentlə videogörüş zamanı Baş Nazirin birinci müavini Andrey Belousovu hökumətin müvəqqəti sədri təyin etmək təklifini irəli sürmüşdür. Kremlin Mətbuat xidmətindən verilən məlumata görə, Putin müvafiq fərmanı artıq imzalamışdır.

## Çində 599 koronavirus xəstəsi qalıb



Çində koronavirusa yoluxmuş 599 xəstə qalıb. Bu barədə dünən Gigiyena və Səhiyyə Məsələləri üzrə Dövlət Komitəsi məlumat vermişdir.

Bu göstərici 24 saat ərzində 3 faiz azalmışdır. Ölkədə srağagün 12 nəfərdə COVID-19 aşkarlanmışdır. Xəstələrin 6-sı xaricdən gələnlərdir. Artıq beş gündür yeni ölüm halı qeydə alınmır.

Çin hökuməti martın 29-da ölkədə epidemiyanın yayılmasının başa çatdığını elan etmişdir. Keçən ayın əvvəllərində koronavirusa yoluxanların 94 faizi tamamilə sağalmışdır. Ötən ilin dekabr ayından bəri ölkədə koronavirusa 82874 yoluxma halı qeydə alınmış, xəstələrin 4633-ü vəfat etmişdir.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyi və kollektivi agentliyin "4 №-li Xüsusi Təyinatlı Yol İstismarı" MMC-nin direktoru Nadir Abbasova atası

**ƏHMƏD MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəbrayıl şəhər akademik M.Mehdizadə adına tam orta məktəbin 1980-ci il buraxılış X[a] sinif məzunları Orucovlar ailəsinə

**ZAKİR HƏSƏN OĞLUNUN**

faciəli şəkildə vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7579
Sifariş 1177
Qiyməti 40 qəpik